Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.

Heydər ƏLİYEV

DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

14 iyun 2019-cu il № 41-44 (9323) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

BU SAYIMIZDA

Mühüm beynəlxalq layihələrin reallaşdırıldığı Xəzər

Türkmənistanda keçiriləcək I Xəzər İqtisadi Forumu ilə əlaqədar iyunun 12-də Bakıda dəyirmi masa təşkil edilib.

Səh. 2

XVIII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisində ASCO-nun stendi təkcə göz oxşamırdı

11-13 iyunda Bakı Sərgi Mərkəzində XVIII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika - "TransCaspian 2019" və IX Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat - "Road & Traffic 2019" sərgiləri keçirilib.

Səh. 3

Dənizçilər könüllü qan veriblər

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində (ASCO) qanvermə aksiyası keçirilib.

Xəzər Dəniz Neft Donanmasının və İstehsalat Xidmətləri İdarəsinin akt zallarında baş tutan bu nəcib tədbirdə əməkdaşlar həvəslə iştirak ediblər.

Səh. 4

Dənizçi sülaləsi

Cahangir Mirzəyevin 28 yaşı var. Hazırda ASCO-nun Xəzər Dəniz Neft Donanmasına məxsus "Kapitan Ağasıyev" yedək gəmisində böyük mexanik kimi çalışır. Demək olar ki, Donanmanın ən gənc böyük mexaniklərindəndir.

Cahangir babası Məhəmmədhüseyn Mirzəyev və atası Mehdi Mirzəyevin yolunu davam etdirir və bununla qürur duyur.

Səh. 5

"Dalğa" və "Xəzər" bağçalarında keçirilən tədbirlər uşaqların ürəyincə olub

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) İnsan Resurslarının İdarəedilməsi Departamentinin təşəbbüsü ilə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı ASCO-nun "Dalğa" və "Xəzər" bağçalarında tədbirlər keçirilib.

Səh. 6

İki güləşçimiz İspaniyanın Pontevedra şəhərində keçirilən Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb

Azərbaycanın iki gənc güləşçisi Turan Bayramov və Abubakr Abakarov İspaniyanın Pontevedra şəhərində keçirilən Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Səh. 8

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi

Gəmiçiliyin bütün işçilərini Azərbaycanın bugünkü nailiyyətlərinin təməlinin qoyulduğu

15 İyun – Milli Qurtuluş Günü

münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinə möhkəm cansağlığı, firavan həyat, xoşbəxtlik, ölkəmizin iqtisadi qüdrətinin artırılması naminə fəaliyyətlərində yeni-yeni uğurlar, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında layiqincə davam etdirilməsi nəticəsində gündən-günə çiçəklənən müstəqil Azərbaycanımıza daha böyük tərəqqi arzulayır.

Bayramınız mübarək!

Müstəqil Azərbaycan Ulu öndər Heydər Əliyevin ideyaları işığında daha yüksək zirvələr fəth edəcək

Xalq mənə ümid bəsləyir, mən bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram.

Heydər ƏLİYEV,
Ümummilli Lider

Heydər Əliyevin ideyaları yaşayır, onun fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır, onun yolu ilə inkişaf edir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Heydər Əliyevdir.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

(Ardı 2-ci səhifədə)

Müstəqil Azərbaycan Ulu öndər Heydər Əliyevin ideyaları işığında daha yüksək zirvələr fəth edəcək

(Əvvəli 1-ci səhifədə)

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", – deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. AXC-Müsavat hakimiyyəti isə təbii ki, Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayıb ona mane olmağa çalışdı. Vəziyyətdən səbirlə çıxan Prezident Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət etdi. İyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi. İyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdü. Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi. Bütün bunlar 1993-cü il 15 iyun tarixinin nailiyyətləridir. Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, qurtuluş deməkdir.

Ulu öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkətləri məhz buna yönəlmişdi. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha geniş miqyaslı islahatların aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlandı. Odur ki, Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas günüdür. Qurtuluş günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə, əmin-amanlığa, demokratiyaya qovuşduğu gündür. Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. 15 İyun tarixi təkcə dövlətçiliyimizin xilası deyildi. Bu tarix həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi.

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz ümummilli lider mövqeyi qazandırıb. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilib. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

Azərbaycan müstəqilliyinin 26-cı ilini yaşayır. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur.

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Azərbaycana gələn hər bir şəxs ölkəmizdə gedən inkişafa heyran qalır. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

Hamı üçün layiqli əmək şəraiti yaradıla bilər

İnsanların gələcəkdə hansı şəraitdə çalışacağı bizim bu gün qəbul etdiyimiz qərarlardan, həmin qərarları həyata keçirmək üçün səmərəli əməkdaşlığı nizamlamaq qabiliyyətimizdən asılıdır.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) rəhbəri Qay Rayder bu fikirləri Cenevrədə BƏT-in illik konfransının açılış mərasimindəki çıxışında söyləyib. Bu il forum xüsusilə təntənəli şəraitdə keçirilir - təşkilat bir əsrlik yubileyini qeyd edir.

BƏT-in 100 il bundan əvvəl tətbiq etdiyi ilk beynəlxalq standartlar iş gününün müddəti, hamilə qadınların və südəmər uşaqları olan anaların hüquqlarının müdafiəsi, işçilərin minimal yaşı, işsizliyə qarşı mübarizə, habelə gecə növbələri kimi məsələlərlə bağlı idi. Qay Rayderin sözlərinə görə, BƏT-in üzvü olan 187 ölkəni birləşdirən bu inamdır ki, bəşəriyyət hamı üçün layiqli əmək şəraiti yarada bilər. O deyib: "Əməyin gələcəyi əvvəlcədən müəyyən edilməyib. Bu, bizdən asılıdır. Bizim əvəzimizə mühüm qərarları nə robotlar qəbul edəcək, nə də süni intellekt".

İsveçrənin federal kansleri Alen Berse də öz çıxışında beynəlxalq əməkdaşlığı möhkəmlətməyə çağırıb. O deyib: "Bu gün əmək sferasında hələ də qeyri-bərabərlik hökm sürür. İnternet və qloballaşma əsrində ölkələr arasında sağlam rəqabəti təmin etmək üçün ümumi standartlar tətbiq edilməlidir". Onun sözlərinə görə, məhz bu səbəbdən Beynəlxalq Əmək Təşkilatı mühüm rol oynayır.

Gözlənildiyinə görə, konfrans iştirakçıları bu tədbirin yekunlarına əsasən iş yerində zorakılığa qarşı mübarizəyə dair Konvensiya, həmçinin gələcəkdə əmək məsələlərinə həsr olunmuş "Əsrin bəyannaməsi"ni qəbul edəcəklər. Bu sənədə BMT-nin əməyin gələcəyinə dair Qlobal Komissiyası tərəfindən işlənib hazırlanmış tövsiyələr daxildir. İsveçrənin Baş nazirinin və Cənubi Afrika Respublikasının Prezidentinin rəhbərlik etdiyi Qlobal Komissiyanın məruzəsi bu il yanvar ayında dərc edilib.

Söhbət ondan gedir ki, əmək bazarında baş verən dəyişikliklərə uyğunlaşmaqla bərabər, həmin dəyişikliklərdən insanın rifahı naminə istifadə edilməlidir. BƏT nümayəndələri: iş vaxtının müddətinə uyğun layiqli əməkhaqqının, təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi, insanın doğuluşundan qocalığa qədər onun sosial müdafiəsinə təminat verilməsi, ümumi fasiləsiz təhsil hüququ kimi əsas əmək hüquqlarına riayət edilməsinin zəruri olduğunu vurğulayırlar.

"Prezident Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi və mərdliyi sayəsində "Türkiyə axını" layihəsinin reallaşması yaxın günlərdə başa çatacaq"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi və mərdliyi sayəsində "Türkiyə axını" layihəsinin reallaşması yaxın günlərdə başa çatacaq.

Bu sözləri Rusiya Prezidenti Vladimir Putin Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun plenar iclasında səsləndirib.

Rusiya Prezidenti Rusiya xammalının Avropaya çatdırılmasını şaxələndirən yeni marşrutların tikintisindən danışarkən bildirib ki, "Şimal axını - 2" və "Cənub axını" layihələri ləng həyata keçirilir, yaxud onların reallaşması təxirə salınır.

O deyib: "Biz Türkiyə ilə "Türkiyə axını"nı inşa etmək barədə razılığa gəldik. Prezident R.T.Ərdoğanın siyasi iradəsi və mərdliyi, ölkəsinin suverenliyinin ən yaxşı xüsusiyyətlərini göstərməsi sayəsində biz hər şeyi yaxın bir neçə ayda başa çatdıracağıq. Artıq layihənin dənizdən keçən hissəsi reallaşıb. İndi ərazidə iş gedir, tezliklə onu başa çatdıracağıq. İndi Avropadakı tərəfdaşlarımız qazımızı başqa marşrutla alacaqlar. Əlbəttə, əgər istəsələr".

Fəridə Abdullayeva

Mühüm beynəlxalq layihələrin reallaşdırıldığı Xəzər

Türkmənistanda keçiriləcək I Xəzər İqtisadi Forumu ilə əlaqədar iyunun 12-də Bakıda dəyirmi masa təşkil edilib.

Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin (BMAM) və Türkmənistanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə deputatlar, Xəzəryanı ölkələrin səfirliklərinin əməkdaşları, ekspertlər, politoloqlar, tələbələr iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, BMAM-ın sədri Rufiz Qonaqov Xəzəryanı ölkələrin xalqları arasında dostluq və əməkdaşlıq platformalarının əhəmiyyətindən danışıb. O, Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətlərinə, ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlıq perspektivlərinə diqqəti çəkib. BMAM-ın sədri Xəzərin hüquqi statusunun müəyyən edilməsindən sonra Xəzəryanı ölkə başçılarının iştirakı ilə bu il avqustun 12-də Türkmənistanda təşkil olunacaq I-ci Xəzər İqtisadi Forumunun vacibliyindən söz açıb.

Türkmənistanın Azərbaycandakı səfiri Mekan İşankuliyev "Birinci Xəzər İqtisadi Forumu" mövzusunda çıxış edərək Xəzəryanı ölkələr arasında dostluq münasibətlərinin, xüsusilə də iqtisadi əməkdaşlığın əhəmiyyətindən bəhs edib. Səfir vurğulayıb ki, Xəzər dənizi Asiya və Avropa arasında tranzit rolunu oynayır. Xəzər dünya enerji xəritəsində böyük əhəmiyyətə malikdir. Bu coğrafiyada mühüm beynəlxalq layihələr reallaşdırılır.

Sonra Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev "Xəzər hövzəsi ölkələrinin beyin mərkəzlərinin əməkdaşlıq perspektivləri" mövzusunda çıxış edib. O, Xəzəryanı ölkələrin birgə səylərinin artırılmasında beyin mərkəzlərinin yaradılması ətrafında fəaliyyətin gücləndirilməsini təklif edib. Əlavə edib ki, iqtisadi təşəbbüslərin sistemli və səmərəli nəticələnməsində beyin mərkəzlərinin rolu vacibdir. Sədr, həmçinin Xəzər hövzəsi dövlətləri arasında siyasi əməkdaşlığın güclənməsində beyin mərkəzlərinin üzərinə məsuliyyət düşdüyünü deyib.

Türkmənistanın Azərbaycandakı səfirliyinin birinci katibi Ovezgeldi Cumanazarov "Xəzərin tranzit və logistika potensialı" mövzusunda məruzə ilə çıxış edib. O deyib ki, müasir iqtisadi inkişaf dünya bazarına daha səmərəli çıxış yollarının axtarışını tələb edir. Bu baxımdan, Xəzəryanı ölkələr həm quru, həm də dəniz vasitəsilə geoiqtisadi baxımdan əlverişli imkanlarını möhkəmləndirməli və birgə səylərini daha da artırmalıdırlar.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu "Xəzər dənizi yeni enerji və nəqliyyat-kommunikasiya dəhlizi kimi" mövzusunda çıxış edərək Xəzərin nəqliyyat-kommunikasiya dəhlizi ətrafında real vəziyyətdən və Xəzəryanı dövlətlərin əməkdaşlıq perspektivlərindən, qarşılıqlı fayda gətirən iqtisadi əməkdaşlığın bütün region ölkələri üçün səmərəliliyinin artırılmasının əhəmiyyətindən bəhs edib. Deputat Xəzərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş regional və qlobal əhəmiyyətli enerji layihələri ilə bağlı sabit inkişaf strategiyasını bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyini bildirib.

"Xəzər dənizində neft-qaz layihələri" mövzusunda çıxış edən "BP-Azərbaycan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli Xəzər hövzəsinin neft-qaz layihələrinin dünya miqyasında artan əhəmiyyətinə diqqət çəkib. O, Xəzəryanı ölkələrin qarşılıqlı fayda verəcək regional və qlobal əhəmiyyətli əməkdaşlığının gücləndirilməsindən bəhs edib. Xəzər regionunun neft-qaz layihələrinin XXI əsrdə ən iqtisadi səmərəli və strateji enerji layihələrindən olduğunu diqqətə çatdırıb.

AMEA-nın şöbə müdiri Rəna Mirzəzadə, ekspertlər Rəfail Becanov, Hüseyn İbrahimov, "Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı çıxış edərək bildiriblər ki, Xəzəryanı ölkələr elmi-innovativ və humanitar əməkdaşlığı da artırmalıdırlar. Belə əməkdaşlıq həm də regional iqtisadi və qlobal əhəmiyyətli layihələrə töhfə vermək üçün önəmlidir. Çıxışçılar enerji təhlükəsizliyinin davamlı təmin edilməsi istiqamətində hərtərəfli və çoxpilləli əməkdaşlıq formalarının axtarışlarının daim gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Daha sonra Türkmənistan səfirliyinin Xəzər dənizinin turizm və iqtisadi potensialına dair hazırladığı videoçarx nümayiş olunub.

Tədbir müzakirələrlə davam edib.

Partlayış baş verən tankerdə 12 dənizçi olub

Mahaçqala ticarət limanında Volqa gəmiçilik şirkətinə məxsus tankerdə baş verən partlayış nəticəsində 3 nəfər ölüb.

Rusiya dəniz donanmasının məlumatına görə, tankerdə neftin sisternlərə doldurulması zamanı partlayış baş verib. Gəmidə, ümumilikdə, 12 dənizçi olub. Hadisə nəticəsində yaralanan 3 nəfər xəstəxanaya yerləşdirilib.

Təlimlərdə müxtəlif təyinatlı gəmilər iştirak edir

Yaponiya və ABŞ Cənubi Çin dənizində "Ronald Reagan" atom aviadaşıyıcı gəmisinin də qatıldığı birgə hərbi təlimlər keçirirlər.

"Sankei" qəzeti xəbər verir ki, təlimlərdə Yaponiya özünümüdafiə qüvvələrinin "İzumo" helikopter daşıyan gəmisi də iştirak edir. Bildirilir ki, Yaponiyanın "Murasame" və "Akebono" esmineslərinin qatıldığı təlimlər iyunun 10-da başlanıb. Təlimlər əsasən, birgə hərəkətin idarə edilməsi üzrə aparılır.

Nəşrin bildirdiyinə görə, təlimlərin təşkilinin digər məqsədi Cənub-Şərqi Asiya ölkələri ilə ərazi mübahisələri aparan Çinin Cənubi Çin dənizindəki əraziləri fəal şəkildə mənimsəməsinin qarşısını almaqdır.

Vüqar Ağayev

XVIII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisində ASCO-nun stendi təkcə göz oxşamırdı




11-13 iyunda Bakı Sərgi Mərkəzində XVIII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika - "TransCaspian 2019" və IX Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat - "Road & Traffic 2019" sərgiləri keçirilib.

Açılış mərasimində çıxış edən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə sərgilərin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, son illər Azərbaycanın nəqliyyat infrastrukturunda mühüm layihələr həyata keçirilir, ölkəmiz bir sıra beynəlxalq əhəmiyyətli trans-logistika layihələrinin iştirakçısıdır.

Nazir bildirib ki, "TransCaspian 2019" sərgisi Xəzəryanı regionun aparıcı nəqliyyat tədbirlərindən biri olmaqla yanaşı, dəmir yolu, nəqliyyat-logistika xidmətləri və kommersiya nəqliyyatı sahəsində əsas dövlət strukturları ilə kommersiya təşkilatlarını bir araya gətirib.

Sonra nazir Ramin Quluzadə və ziyarətçilər sərgi ilə tanış olublar.

Builki sərgidə 10 ölkədən 75 şirkət iştirak edib. Azərbaycan, Belarus, Rusiya, Türkiyə, Ukrayna və bir sıra digər ölkələri təmsil edən şirkətlər öz məhsul və xidmətlərini təqdim edib. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və digər aparıcı dövlət strukturları, həmçinin kommersiya şirkətləri hər il sərgidə iştirak edirlər. Belarusun Nəqliyyat və Kommunikasiya Nazirliyi isə sərgidə ilk dəfə təmsil olunub.

Sərgilər Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, "TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK), Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən dəstəklənir. Sərgilərin təşkilatçısı qismində "Caspian Event Organisers" şirkəti çıxış edib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) Bakı Ekspo Mərkəzində keçirilən sərgilərdə öz stendi ilə təmsil olunub.

Geniş ərazidə quraşdırılmış stend unikal tərtibatına görə xüsusi fərqlənib. Burada son illər ASCO-nun donanmasının müasirləşdirilməsi istiqamətində görülən tədbirlər və gələcək layihələr haqqında ziyarətçilərə ətraflı məlumat verilib. Bununla yanaşı, sərgidə şirkətin fəaliyyətini əks etdirən müxtəlif çap məhsulları, foto və videoçarxlar nümayiş olunub. Bu baxımdan stendin qarşısında ayaq saxlayan ziyarətçilər də çox olub.

Sərginin açılış mərasimində iştirak edən Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə ASCO-nun stendi ilə yaxından maraqlanıb. Nazirə məlumat verilib ki, "TransCaspian 2019" sərgisində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilk dəfə olaraq ASCO brendi ilə iştirak edir. Şirkət durmadan inkişaf edir və öz mövqeyini gücləndirir. Belə ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsinə layiqli töhfə vermək üçün bütün imkanlarını səfərbər edib.

3 gün ziyarətçilərin üzünə açıq olan Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisi həm Azərbaycanın, həm də bütövlükdə region ölkələrinin nəqliyyat strukturlarının rəhbər və mütəxəssisləri ilə görüşlər, eləcə də ən son nəqliyyat texnologiyalarının nümayişi, perspektivli infrastruktur layihələri ilə yaxından tanışlıq, yeni müştərilərlə əlaqələr və təcrübə mübadiləsi baxımından çox əhəmiyyətli olub.

Azərbaycan Avropanın ən iri nəqliyyat sərgisində təmsil olunub

Azərbaycan ilk dəfə Almaniyanın Münhen şəhərində keçirilən "Nəqliyyat və logistika" sərgisinə qatılıb.

Messe Münhen mərkəzində təşkil olunan sərgidə ölkəmizi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO), "Azərbaycan Dəmir Yolları" QSC və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vahid milli stenddə təmsil edib. Stenddə hər üç şirkətin nümayəndələri sərgi iştirakçılarına ölkəmizin tranzit potensialı, dəmir yolu, dəniz nəqliyyatı ilə daşımalar, limanlarımızın imkanları, Azərbaycandan keçən Beynəlxalq Nəqliyyat Dəhlizləri və Bakı-Tbilisi-Qars dəmir yolu kimi iri infrastruktur layihələri və onların üstünlükləri barədə ətraflı məlumat verərək, əməkdaşlığa dair görüşlər keçirib, danışıqlar aparıblar.

İyunun 4-də öz işinə başlayan sərgi iyunun 7-dək davam edib.

"Nəqliyyat və Logistika" sərgisi nəqliyyat va logistika sektorunun bütün prosesləri ilə tanış olmaq imkanı verib. Burada Almaniyadan və dünyanın hər yerindən qatılan iştirakçılara, eyni zamanda geniş əhatəli konfrans proqramı təklif edilib və məlumat mübadiləsi uçun platformalar yaradılıb.

Qeyd edək ki, ekspozisiya sərgi mərkəzinin 10-dan artıq pavilyon və açıq meydançasında yerləşdirilib. 115 000 kvadratmetr sahəni əhatə edən sərgiyə 62 ölkədən 2 500-ə yaxın iştirakçı qatılıb. Bunlar nəqliyyat, logistika, yükdaşıma və yüksək texnologiya üzrə dünyanın aparıcı şirkətlərinin təmsilçiləridir.

Sərgiyə 123 ölkədən 60000-dən artıq ziyarətçin baş çəkib.

Hər iki ildən bir keçirilən "Nəqliyyat və logistika" sərgisi bu tip sərgilər arasında xüsusi seçilir. Avropanın ən böyük sərgisi hesab olunan Münhen sərgisi dünyada miqyasına görə ilk beşliyə daxildir.

Bakıda "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" mövzusunda konfrans təşkil olunub

Bakı Sərgi Mərkəzində "TransCaspian 2019" və "Road & Traffic 2019" sərgiləri çərçivəsində iyunun 11-də "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" mövzusunda konfrans keçirilib.

Konfransda çıxış edən TRACECA Hökumətlərarası Komissiyasının milli katibi Akif Mustafayev cari ilin birinci rübündə TRACECA dəhlizi üzrə yükdaşımalar sahəsində Azərbaycanın gəlirlərinin 4,3 faiz artdığını deyib.

"Bugünədək TRACECA tərəfindən 76 layihə həyata keçirilib. Bu ilin birinci rübündə ötən ilin müvafiq dövrü ilə müqayisədə TRACECA dəhlizi üzrə yükdaşımalara dair Azərbaycanın gəlirləri 4,3 faiz artaraq 156,4 milyon manat təşkil edib", - deyə A.Mustafayev bildirib.

Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının katibi Rüfət Bayramov deyib ki, Gəncədə və "Qırmızı Körpü" ərazisində logistik mərkəzlərin qurulması nəzərdə tutulur.

Ölkəmizdəki mövcud logistik mərkəzlərin əhəmiyyətini vurğulayan R.Bayramov gələcəkdə bu mərkəzlərin sayının artacağını bildirib: "Gələcəkdə Gəncədə və "Qırmızı Körpü" ərazisində logistik mərkəzlərin qurulması planlaşdırılır. Hər bir bölgəyə uyğun olaraq regionlarda tranzit və logistika mərkəzləri qurulacaq. Artıq Ələtdə belə bir azad ticarət zonası qurulub".

"Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri artıq sinxronlaşdırılıb. Şimal-Cənub dəhlizi artıq daha intensiv işləyir", - deyə o əlavə edib.

"Azərbaycan Dəmir Yolları" QSC-nin Tarif siyasəti və marketinq üzrə şöbə rəisi Əli Qasımov isə bildirib ki, Ləki-Qəbələ dəmir yolu xəttinin çəkilməsi üçün torpaq yatağının qurulması ilə bağlı işlər ilin sonunadək yekunlaşacaq.

Onun sözlərinə görə, Ləkidən Qəbələ Hava Limanına qədər olan ərazidə torpaq yatağının qurulması ilə bağlı işlər tamamlanmaq üzrədir: "Belə ki, ilin sonuna kimi bu işlər tam yekunlaşacaq. Dəmir yollarının çəkilməsi isə gələn ilin ortalarına qədər çəkəcək. Bununla yanaşı, "Stadler" şirkətinə məxsus qatarların bu xətdə də istifadəsi planlaşdırılır".

Xatırladaq ki, 2018-ci ildə Prezident İlham Əliyev Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Konfransda aparıcı mütəxəssislər beynəlxalq nəqliyyat marşrutlarının inkişaf perspektivlərini və optimallaşdırma yollarını, eləcə də Azərbaycanın beynəlxalq ticarətdə oynadığı rolu müzakirə ediblər.

Tədbirin sessiyaları çərçivəsində "İpək yolunun bərpası və dövlətlər arasında ticarət əlaqələrinin inkişafında əhəmiyyəti", "Azərbaycanda logistika şəbəkəsinin inkişaf strategiyası", "Beynəlxalq nəqliyyat dəhlizləri üzrə yük axınının optimallaşdırılması" mövzuları müzakirə olunub.

Fransa ədliyyə orqanları Arnuvil şəhəri və Dağlıq Qarabağdakı qondarma Şeher bölgəsi arasında imzalanmış "sənəd"i ləğv edib

Fransa ədliyyə orqanları bu ölkənin Arnuvil şəhəri və Azərbaycan Respublikasının 1992-ci ildən bəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan Dağlıq Qarabağ regionunda yaradılmış qondarma qurumu təmsil edən Şeher inzibati bölgəsi arasında imzalanmış "dostluq xartiyası"nı qeyri-qanuni elan edib və onu ləğv edib.

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir.

Məlumatda deyilir: "Bu, Azərbaycanın işğal edilmiş torpaqlarında formalaşdırılmış qondarma qurumla həmrəylik nümayiş etdirmək naminə bitərəflik prinsiplərinə qəsdən məhəl qoymamaq yolunu seçən yolunu azmış bəzi yerli seçkili və bir sıra yerli hakimiyyət orqanları rəsmilərinin sonunu gətirəcək hüquqi presedentdir. Serji-Pontuaz inzibati məhkəməsi "Fransanın beynəlxalq öhdəliklərinə hörmət etmir" və "Dövlətin müstəsna səlahiyyəti olan Fransanın xarici siyasətinə qarşı çıxır" arqumentlərini rəhbər tutaraq sözügedən xartiyanı ləğv edib".

Xatırlatmaq lazımdır ki, 1993-cü il dekabrın 20-də Fransa ilə Azərbaycan arasında imzalanmış "Dostluq, anlaşma və əməkdaşlıq haqqında müqavilə"nin 2-ci maddəsində tərəflər beynəlxalq təhlükəsizliyin təmin edilməsi, münaqişələrin qarşısının alınması, dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn rəhbər tutulması, beynəlxalq səviyyədə tanınmış sərhədlərin pozulmaması prinsipinə hörmət edilməsi naminə səylərini birləşdirəcəklərinə dair üzərlərinə öhdəliklər götürüblər.

Fransanın beynəlxalq öhdəliklərinə uyğun olaraq, ilk növbədə, vurğulamaq lazımdır ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə hörməti təsdiq edən, Azərbaycanın işğal edilmiş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən BMT TŞ tərəfindən 1993-cü ildə qəbul edilmiş qətnamələr rəsmi Paris tərəfindən dəstəklənib.

Bundan başqa, suveren dövlətin milli birliyini və ərazi bütövlüyünü pozmaq məqsədi daşıyan, eyni zamanda, qovma və ya etnik təmizləmə həyata keçirməklə bir araya sığmadığı yenidən təsdiqlənmiş "xalqların öz müqəddəratını təyinetmə hüququ"ndan istifadəyə icazə verməyən beynəlxalq hüququn prinsiplərinə hörmət etmək lazımdır.

Bununla yanaşı, işğal olunmuş ərazilərdən zorla qovulmuş yüz minlərlə azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını tələb edən insan hüquqları prinsipi və beynəlxalq humanitar hüququn prinsiplərinə hörmət edilməli, onlar öz yurdlarına, evlərinə geri qaytarılmalı, kəndlər və şəhərlər ən qısa zamanda bərpa edilməlidir. Söhbət 1989-cu ildə əhalinin təqribən 24 faizini təşkil edən 40 min azərbaycanlının Dağlıq Qarabağdan, həmçinin 1992-1993-cü illərdə işğal edilmiş Dağlıq Qarabağın ətrafındakı yeddi rayondan qovulmuş azərbaycanlılardan gedir.

Bu şərtlər altında seçkili və ya yerli hakimiyyət orqanları tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərdində yaradılmış və Fransa tərəfindən tanınmayan qeyri-qanuni separatçı qurum olan qondarma "Dağlıq Qarabağ Respublikası"nı təmsil edən yerli orqanlarla "dostluq xartiyaları"nın imzalanması Fransanın beynəlxalq fəaliyyətinin ardıcıllığını ciddi şəkildə sarsıdır və xalqlar arasında qarşılıqlı anlaşmanın təməlini, o cümlədən beynəlxalq diplomatik münasibətlərin inkişafının harmoniyasını təhdid edir.

1997-ci ilin yanvarından bəri ABŞ və Rusiya ilə birlikdə ATƏT-in Minsk qrupunun həmsədri olan Fransanın öhdəlikləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli və sülh yolu ilə həllinin tapılmasını təşviq edir və "qanunsuz xartiyalar"ın ləğvinə dair Fransa hökumətinin möhkəm mövqeyi təkcə Ermənistan və Azərbaycanda deyil, eləcə də Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyə təhdid olan və uzun müddət davam edən bu çıxılmaz vəziyyəti irəli apara bilər.

Münaqişənin ədalətli həlli yalnız region ölkələrinin deyil, Fransa da daxil olmaqla avropalı tərəfdaşların faydalanacağı Cənubi Qafqaz regionunun dayanıqlı inkişafı və geniş regional əməkdaşlıq üçün əlverişli şərait yaradacaq.

Dənizçilər könüllü qan veriblər

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində (ASCO) qanvermə aksiyası keçirilib.

Xəzər Dəniz Neft Donanmasının və İstehsalat Xidmətləri İdarəsinin akt zallarında baş tutan bu nəcib tədbirdə əməkdaşlar həvəslə iştirak ediblər. Könüllü qan verənlər bunun xeyirxah və savab iş olduğunu diqqətə çatdıraraq, belə aksiyalarda yaxından iştirak etməyin vətəndaşlıq borcu olduğunu bildiriblər.

Toplanan donor qanları isə Səhiyyə Nazirliyinin Mərkəzi Qan Bankına təhvil verilib.

Xatırladaq ki, sözügedən sosial təşəbbüs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi "Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramı və Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində keçirilən tədbirlərə dəstək niyyəti daşıyır.

HDQ-nin göyərtə qrupunun NATO standartlarına uyğun qiymətləndirilməsi müvəffəqiyyətlə başa çatıb

Bakıda NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Proqramı çərçivəsində Hərbi Dəniz Qüvvələrinin (HDQ) Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Göyərtə qrupunun "Dənizdə qadağa əməliyyatları" üzrə NATO standartlarına uyğun ikinci səviyyəli özünüqiymətləndirməsi (SEL-2) keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, NATO-nun Nortvud Hərbi Dəniz Qərargahının nümayəndələrinin müşahidəsi ilə icra edilən qiymətləndirmənin əsas məqsədi Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Göyərtə qrupunun fəaliyyətinin və təchizatının Şimali Atlantika Alyansının standartlarına uyğunluğunu yoxlamaqdan ibarətdir. Təlim, eyni zamanda, 2020-ci ildə ikinci səviyyəli NATO qiymətləndirməsinə hazırlıq məqsədi daşıyır.

"Zirə" təchizat-yedək gəmisi əsaslı təmir olunub



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasına məxsus "Zirə" təchizat-yedək gəmisi əsaslı təmir olunub.

"Bibiheybət" Gəmi Təmiri Zavodunda aparılan təmir işləri vaxtında və yüksək keyfiyyətlə başa çatdırılıb.

Təmir zamanı, braşpil qurğusu, su-yağ soyuducuları, dörd nasos, hava balonları, boru sistemləri, hava xətləri ilə birlikdə CO2 balonları, dayanacaq mühərriklərinin generatorları, mexanizm və elektrik avadanlıqlarının elektrik idarəetmə və qorunma sistemləri təmir olunub, xilasedici qayığın kran-balkasının sınaq işləri aparılıb. Təmir prosesində yararsız vəziyyətdə olan bioloji qurğu tamamilə demontaj olunub, əvəzində yeni V=87,79m³ həcmində olan ballast çəninin fekal-çirkab su çəni kimi istifadə olunması təmin olunub.

Həmçinin, işçi heyətin yaşayış şəraitini yaxşılaşdırmaq üçün yeməkxana, sanitar qovşaqlar, istirahət otağı və kayutlarda lazımi təmir işləri aparılıb.

Tərsanə təmiri zamanı isə gəminin hərəkət-sükan kompleksi, dib-yan armaturları, protektor qurğuları cari təmir edilib. Gövdənin sualtı və suüstü hissəsində zədələnmiş sahələr dəyişdirilib. Bundan əlavə, gövdənin qorunması üçün cizgi əsasında yeni metal qoruyucu tirlər quraşdırılıb, baş göyərtədə lövbərlərin qoyulması üçün taxta döşəmə metal lövhə ilə əvəz olunub. Gövdə təmir işləri başa çatdırıldıqdan sonra gəmi üzrə rəngləmə işləri yerinə yetirilib.

Təmirdən sonra gəmi dəniz sınağına çıxarılıb və sınaq işləri uğurla başa çatdırılıb.

Məlumat üçün bildirək ki, gəminin uzunluğu 60, eni 16 metr, sürəti 13 uzeldir. "Zirə" gəmisinin dedveyti 1810, dartma qüvvəsi 75 tondur. Gəminin texniki xüsusiyyətləri sərt hava şəraitində dənizdəki platformalara yan almadan yükləmə-boşaltma əməliyyatlarını təhlükəsiz şəraitdə yerinə yetirməyə imkan verir.

Təchizat-yedək gəmiləri yanacaq, içməli su, qazma məhlulları, quru yük, konteyner, borular və bu kimi digər müxtəlif yükləri qəbul etmək üçün geniş göyərtəyə və böyük həcmli yük tanklarına malikdir.

ADDA-nın tələbələrinə işə qəbul müsabiqəsinə hazırlıq barədə təqdimat keçirilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) İnsan Resurslarının İdarəedilməsi Departamenti tərəfindən Azərbaycan Dövlət Dəniz Akademiyasının IV kurs tələbələri üçün işə qəbul müsabiqəsinə hazırlıq barədə təqdimat keçirilib.

İRİD-in gənclərlə iş üzrə koordinatoru Roza Bədəlova və işə qəbul üzrə aparıcı mütəxəssis Yeganə Nəsibova ASCO-da işə qəbul barədə tələbələrə ətraflı məlumat veriblər. Bldiriblər ki, ASCO-da kadr siyasəti uyğun əməkdaşın uyğun vaxtda uyğun vəzifəyə münasibliyi prinsipi ilə həyata keçirilir.

Təqdimat zamanı tələbələrə uğurlu CV doldurmağın yolları da öyrədilib. Qeyd olunub ki, işə qəbul üçün ən əsas mərhələlərdən biri CV mərhələsidir. Belə ki, CV işəgötürəndə sizin haqqınızda ilkin fikir yaradacaq vasitədir. Bu səbəbdən işə qəbul olmaq istəyirsinizsə, səliqəli və diqqətçəkən CV hazırlamaq və göndərmək vacib məsələlərdəndir.

Sonda ADDA-nın tələbələri arasında nümunə olaraq "işə qəbul müsabiqə"si keçirilib.

Tələbələr təqdimatı böyük maraqla izləyib, mövzuyla bağlı fikirlərini bildirib, suallarını səsləndiriblər.

Dünya Okeanlar Günü bir çox ölkələrdə bayram kimi qeyd olunur

8 iyun - Dünya Okeanlar Gününün qeyd edilmə tarixi 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən BMT-nin "Ətraf mühit və inkişaf" konfransında elan olunub. Günün qeyd edilməsində əsas məqsəd bütün diqqəti bəşəriyyətin həyatında vacib rol oynayan nəhəng su hövzələrinin mühafizəsinə yönəltməkdir.

Dünya Okeanlar Günü bir çox Avropa, Cənub-Şərqi Asiya, Latın Amerikası, Avstraliya, Afrika ölkələrində, eləcə də Cənubi Asiya və Uzaq Şərqdə bayram kimi qeyd olunur.

Hər il bir mövzunu əhatə edən Dünya Okeanlar Gününün builki şüarı "Gender və okeanlar" idi.

Qeyd edək ki, hər il okeanlara 8 milyon ton plastik kütlə atılır ki, bu da onun ekosisteminə 8 milyard funt sterlinq ziyan vurur.

Yer kürəsinin 70 faizini okeanlar təşkil edir. Planetimizin 361 milyon kvadratkilometr sahəsi dörd okean arasında bölünüb – Sakit, Atlantik, Hind və Şimal Buzlu.

Nəfəs aldığımız oksigenin çoxu okeanlar tərəfindən istehsal edilir. Okeanlar vasitəsilə karbon-dioksid emissiyaları absorbsiya olunur, canlılar qidalarının əksər hissəsini buradan alır, iqlim tənzimlənir. Bundan əlavə okeanlar turizm, balıqçılıq və iqtisadiyyatın inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır.

Təəssüf ki, antropogen təsirlər, brakonyerlik, qeyri-qanuni balıqçılıq, su hövzələrinin çirkləndirilməsi və asidifikasiyası, iqlim dəyişkənliyi dünyanın okean və dənizləri üçün ciddi təhlükələrə səbəb olub.

İki il əvvəl batan quru yük gəmisi sudan çıxarılır

Mərmərə dənizinin İstanbulun Zeytinburnu rayonu sahillərinə yaxın hissəsində iki il əvvəl batan "Bereket" quru yük gəmisi sudan çıxarılır.

115 metr uzunluğu olan gəminin sudan çıxarılması işlərinə xüsusi hazırlanmış dalğıclar cəlb olunublar. Gəmi suyun altında hissələrə ayrılaraq çıxarılır. Çıxarılan parçalar arasında gəminin kapitan kabinəsi və mühərrik hissəsi də var. Hazırda işlər davam edir.

Qeyd edək ki, gəmi 2017-ci il yanvarın 28-də batıb.

Günel Məlikova

Panama bayrağı altında üzən gəmidə yangın baş verib

İsrail sahillərində "MSC Canberra" adlı gəmidə yangın baş verib. Gəmi Türkiyənin Mersin şəhərindən hərəkət edərək Hayfa limanına istiqamət götürüb.

Bu barədə Türkiyə KİV-lərində məlumat yayılıb. İsrail mediasına istinadən verilən məlumatda bildirilir ki, ilkin ehtimala görə, gəmi dəniz quldurlarının hücumuna məruz qalıb.

203 metr uzunluğunda, 31 metr enində olan "MSC Canberra" quru-yük gəmisi Panama bayrağı altında üzür.

Sabir Şahtaxtı

Təhlükəsiz qida ilə qidalanmadıqda...

Birləşmiş Millətlər Təşkilatının Dünya Qida Təhlükəsizliyi Günü, hər kəsin təhlükəsiz, bəsləyici və yetərli qidaya sahib olma haqqına diqqət çəkir. 7 iyun - Dünya Qida Təhlükəsizliyi Günü Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 2018-ci ilin dekabrında təsis edilib.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Bakıdakı nümayəndəliyindən AZƏRTAC-a bildirilib ki, son illər qida təhlükəsizliyi ilə bağlı diqqətəlayiq inkişaflara baxmayaraq, qidalanma xəstəliklərinin qlobal ölçüsü hələ də qəbuledilməzdir. Dünyada hər il təxminən 600 milyon insanda müxtəlif kimyəvi, bakteriya, virus, parazit və toksin kimi maddələrlə çirklənmiş qidaların istehlak edilməsi nəticəsində qida zəhərlənmələri baş verir ki, bunun nəticəsində dünyadakı hər 10 insandan biri tibbi müayinəyə ehtiyac duyur. Təəssüf ki, qida təhlükəsizliyinin mahiyyətini insanlar yalnız kiçik və ya böyük miqyaslı qida zəhərlənmələri yaşadıqdan sonra anlayırlar. Bu səbəbdən təhlükəsiz qida ilə qidalanmadıqda mədə-bağırsaq infeksiyalarından tutmuş xərçəngə qədər 200-dən artıq xəstəliyə yoluxma halı baş verir. Təhlükəsiz qidalar yalnız sağlamlığı qorumaq və ərzaq təhlükəsizliyini təmin etmək üçün deyil, eyni zamanda hər bir ölkənin yaşayış şəraiti, iqtisadi inkişaf, ticarət və beynəlxalq nüfuzuna görə vacibdir.

Dünyada ilk dəfə qeyd olunan Birləşmiş Millətlər Təşkilatının Dünya Qida Təhlükəsizliyi Günü, yediyimiz qidaların təhlükəsizliyini təmin etmək üçün səyləri gücləndirməyi hədəfləyir.

Birləşmiş Millətlər Təşkilatının iki qurumu olan Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Dünya Səhiyyə Təşkilatı (WHO), dünyada qida təhlükəsizliyini təmin etmək üçün qabaqcıl işlər görür.

Çirklənmə fermadan masaya qədər bütün proseslərdə baş verə bilər. Bu çərçivədə qida təhlükəsizliyi məhsulu yetişdirən, istehsal edən, satan və istehlak edən hər kəsin kollektiv məsuliyyətidir.

FAO-nun ərzaq təhlükəsizliyi və keyfiyyəti üzrə mütəxəssisi Marry Kenniyə görə, "İstehlakçılar dəyişiklikləri təşviq etmək hüququna malikdirlər. Bundan əlavə, qida təhlükəsizliyi ilə bağlı çətinliklər nəzərə alınmaqla, istehlakçılar ərzaq seçimlərinə gəldikdə qida və qida məhsulları ilə bağlı risklər barədə vaxtında, dəqiq və etibarlı məlumat əldə etməlidirlər".

Hökumətlər və qida təhlükəsizliyi orqanları təhlükəsiz və bəsləyici qidalardan istifadə edə biləcəyimizi təmin etmək üçün mühüm rol oynayırlar. Müvafiq qida qaydalarına uyğun olaraq, hökumətlər və qida təhlükəsizliyi orqanları qida təhlükəsizliyi operatorlarının bütün ərzaq zənciri boyunca qida təhlükəsizliyi risklərini idarə etmələrinə kömək göstərə bilər.

Merry Kenni onu da qeyd edib ki, Avropanın və Mərkəzi Asiyanın bir çox ölkələri çoxtərəfli əməkdaşlıq və risklərə əsaslanan yanaşmaların qəbul edilməsi yolu ilə qida təhlükəsizliyi nəzarət sistemlərinin təkmilləşdirilməsi üçün böyük səylər göstərirlər. FAO-WHO tərəfindən nəşr olunan Beynəlxalq Qida Təhlükəsizliyi Standartları (Codex Alimentarius), xalq sağlamlığının qorunması və beynəlxalq ticarətin və iqtisadi inkişafın təmin olunmasında mühüm vasitədir.

Bundan əlavə, hökumətlər və müvafiq qurumlar qida təhlükəsizliyi riskləri və onların qarşısını almaq üçün ərzaq istehsalçıları və istehlakçılarını məlumatlandırmaq və idarə etməkdən məsuliyyət daşıyırlar. FAO bölgədəki ölkələrə təhlükəsiz qidaların tədarükünü təmin etmək üçün regiondakı ölkələr arasında rəsmi nəzarət sistemlərinin, texniki yardım və əməkdaşlığın gücləndirilməsini dəstəkləyir.

Qidaların emalı, saxlanması, qida dəyərlərinin qorunması, qida tullantılarının minimuma endirilməsi, qida təhlükəsizliyinin təmin edilməsi və məhsuldan sonrakı itkilərin azaldılması üçün özəl sektorun dəstəyi və iştirakı təmin edilməlidir.

FAO və Ümumdünya Səhiyyə Təşkilatı hər kəsin təhlükəsiz, qidalı və adekvat bəslənmə hüququna malik olduğunu və Dayanıqlı İnkişaf Məqsədlərindən biri olan Aclığa son qoymaq məqsədi üçün təhlükəsiz qidaların vacib olduğunu düşünür. Hər kəsin bu prosesə necə qoşula biləcəyini göstərmək üçün Birləşmiş Millətlər Təşkilatının hər iki agentlikləri sıx əməkdaşlıq edərək yeni bir təlimat hazırlayıblar. Bu təlimatda ərzaq təhlükəsizliyi ilə bağlı dayanıqlı dəyişiklik etmək üçün aşağıdakı beş addım müzakirə olunur: Təhlükəsiz olduğundan əmin olun. Hökumət hər kəs üçün təhlükəsiz və bəsləyici qida təmin etməlidir; Təhlükəsiz yetişdirin. Kənd təsərrüfatı və qida istehsalçıları sağlam və öndəgedən təcrübələrə və tətbiqlərə uyğunlaşmalıdırlar; Təhlükəsiz saxlayın. İdarəedənlər qida təhlükəsizliyini təmin etməlidirlər;

Təhlükəsiz olduğunu yoxlayın. İstehlakçılar qida ilə bağlı xəstəlik riskləri barədə vaxtında, dəqiq və etibarlı məlumatlara ehtiyac duyurlar; Təhlükəsizlik üçün bir araya gəlin. Hökumətlər, regional iqtisadi qurumlar, Birləşmiş Millətlər Təşkilatının qurumları, inkişaf agentlikləri, ticarət qeyri-hökumət təşkilatları, istehlakçı və istehsalçı qrupları, akademiya, tədqiqat təşkilatları və s. qida təhlükəsizliyi mövzusunda bir araya gələr.

Beynəlxalq Dəniz Təşkilatının Dəniz Təhlükəsizliyi Komitəsinin sessiyasında mühüm məsələlər müzakirə olunub

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti baş qərargahı London şəhərində yerləşən, BMT-nin nüfuzlu orqanı olan Beynəlxalq Dəniz Təşkilatının (BDT) Dəniz Təhlükəsizliyi Komitəsinin 101-ci sessiyasında iştirak edib.

Dövlət Dəniz Agentliyinin mətbuat xidmətindən verilən məlumata görə, iclası açıq elan edən Beynəlxalq Dəniz Təşkilatının Baş katibi Kitak Lim gündəlikdə duran məsələlər barədə danışıb.

Sessiyada qeydiyyatdan keçən mətbuat nümayəndələri tədbirin gedişini izləmək imkanı əldə ediblər. Azərbaycan nümayəndə heyətinin sessiyada foto və video çəkiliş aparmasına rəsmən icazə verilib.

Beynəlxalq Dəniz Təşkilatının Baş katibi Kitak Lim mayın 30-u Macarıstanın paytaxtı Budapeştdə Dunay çayında turist gəmisinin qəzaya uğraması nəticəsində dünyasını dəyişənlərin ailələrinə başsağlığı verib. Qəza ilə bağlı narahatlığını ifadə edən Baş katib bu hadisənin nəticələrinin araşdırılması və başvermə səbəbləri ilə bağlı təqdim olunacaq hesabata diqqətlə yanaşılmasının vacibliyini vurğulayıb.

"Dəniz cəmiyyətində qadınların səlahiyyətləndirilməsi" mövzusu Baş katib Kitak Limin təklifi ilə öz təsdiqini tapıb. "Qadınların dünyada dəniz sahəsində fəaliyyətinin genişləndirilməsi, səlahiyyətlərinin artırılmasına dəstək verilməsi mühüm əhəmiyyət kəsb edir", - deyən Kitak Lim vurğulayıb ki, dəniz nəqliyyatı sahəsində gender bərabərliyinin qorunmasına, qadın və qızların səlahiyyətləndirilməsinə nail olmaq lazımdır.

Sessiyada Beynəlxalq Dəniz Təşkilatı qurumlarının qərarları müzakirə olunub, əsas hüquqi sənədlərə dəyişikliklər nəzərdən keçirilib. Sessiyada, həmçinin dənizdə mühafizənin gücləndirilməsi istiqamətində görülən tədbirlər, yeni gəmi konstruksiya və standartları, qütb sularında üzən "SOLAS" Konvensiyasının tətbiq olunmadığı gəmilərə dair təhlükəsizlik tədbirləri, yanacaq istifadəsinə uyğun olaraq gəmilərin təhlükəsizliyinin yüksəldilməsinə dair əlavə tədbirlərin təkmilləşdirilməsi, konteynerlərin və yüklərin daşınması, çirklənmənin qarşısının alınması və cavab tədbirləri müzakirə edilib. Naviqasiya, kommunikasiya, axtarış və xilasetmə, gəmi dizaynı və konstruksiyası, gəmi sistemləri və avadanlıqları, yeni tədbirlərin tətbiq olunması üçün bacarıqların artırılması, formal mühafizə qiymətləndirilməsi, beynəlxalq ictimaiyyəti dərindən narahat edən mühüm gəmilərə qarşı silahlı basqın və quldurluq halları, dəniz vasitəsilə təhlükəli qarışıq miqrasiya halları, komitə metodunun tətbiqi məsələləri də sessiyada müzakirə olunan əsas məsələlər sırasında olub.

Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti səfər çərçivəsində Beynəlxalq Dəniz Təşkilatının rəsmiləri, sessiyaya qatılmış bir sıra üzv dövlətlərin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib. Görüş zamanı qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsi, habelə dəniz nəqliyyatı sahəsi ilə bağlı ölkəmiz üçün əhəmiyyətli olan bir sıra mühüm məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dənizçi sülaləsi

Cahangir Mirzəyevin 28 yaşı var. Hazırda ASCO-nun Xəzər Dəniz Neft Donanmasına məxsus "Kapitan Ağasıyev" yedək gəmisində böyük mexanik kimi çalışır. Demək olar ki, Donanmanın ən gənc böyük mexaniklərindəndir.

Cahangir babası Məhəmmədhüseyn Mirzəyev və atası Mehdi Mirzəyevin yolunu davam etdirir və bununla qürur duyur.

- Cahangir, necə oldu ki, dənizçiliyi seçdiniz sualı yersiz olar. Hər halda, səbəb babanız və atanızdır.

- Bəli, babam Məhəmmədhüseyn Mirzəyev 35 il dənizdə işləyib. Atam isə artıq 38 ildir ki, bu sahədədir. Hazırda Xəzər Dəniz Neft Donanmasında kapitan kimi çalışır. Təəssüf ki, babamla dənizçilik barədə danışmaq imkanım olmayıb. O, mən uşaq olanda dünyasını dəyişib. Amma atamın təcrübəsindən xeyli yararlanmışam. O, özü də dənizçi olmağımı çox istəyirdi.

- Tələbəlik illərini xatırlayaq...

- Azərbaycan Balıq Sənayesi Texnikumunu bitirmişəm. Təhsil aldığım illərdə söhbətlərimiz ancaq dəniz və gəmi haqqında olurdu. Bugün sevindirici haldır ki, qrup yoldaşlarımın böyük əksəriyyəti dənizdə çalışır. Onlarla tez-tez görüşürük.

- Karyeranıza hardan və necə başladınız?

- 2009-cu ildə texnikumu bitirib, hərbi xidmətə getdim. Qayıtdıqdan sonra 2010-2011-ci illərdə xarici şirkətlərin birində motorçu kimi təcrübə keçdim. Fəaliyyətimə də motorçu olaraq başladım, daha sonra növbətçi mexanik diplomu aldım. 2011-ci ildə Xəzər Dəniz Neft Donanmasına işə qəbul oldum. Əvvəlcə kiçik həcmli gəmilərdə ikinci mexanik kimi çalışdım. Sonradan qarşıma məqsəd qoydum ki, donanmamızın flaqman gəmilərində işləməli və vəzifədə yüksəlməliyəm. 2014-ci ildən "İrgiz", "Aydın Məmmədov", "Ramiz Hacıyev", "Avior", "Ədalət Gülməmmədov", "Kapitan Ağasıyev" və bir çox gəmilərdə ikinci mexanik işləmişəm. Hazırda "Kapitan Ağasıyev" gəmisinin böyük mexanikiyəm.

- Dənizçi kimi özünüzə aid xüsusi prinsipləriniz varmı?

- Çalışıram ki, vəzifə öhdəliklərimi qüsursuz yerinə yetirim. İşimi donanma qaydalarına uyğun, şirkətin maraqları çərçivəsində qururam. Ən əsası, vəzifəmi vicdanla yerinə yetirirəm. Düşünürəm ki, insan vəzifəsindən asılı olmayaraq ilk hesabatı özünə verməlidir. Mən "görəsən, etimadı doğrulda bilirəm, ya yox? " sualını özümə tez-tez verirəm. Hər kəs bacardığı işlə məşğul olmalıdır. Bacarmırsansa, öyrənməyə çalış. Burda qəbahət yoxdur. Cəhd edirsən və yenə də alınmırsa, deməli, başqa sahənin adamısan.

- Gəmi mühitindən danışaq. Evdən çox gəmidə olursunuz. Bu mühitdə nə tələb olunur?

- Gəmi mühitü insana möhkəm, iradəli olmağı öyrədir. Çalışmaq lazımdır ki, hər bir çətinliyin öhdəsindən gələsən. Bir də dənizdə dəqiq və keyfiyyətli qərar qəbul etmək vacib məsələdir. Bəzən bir dənizçinin kiçik səhvi böyük faciəyə səbəb ola bilər. Bu məsuliyyəti dərk etmək lazımdır. Özünü, ailəni təhlükələrdən necə qoruyursansa, dənizçi dostlarını da elə qorumalısan!

- Donanmanın ən gənc böyük mexaniklərindənsiniz. Bunu necə bacardınız?

- Dənizçilik elə bir sahədir ki, burda ancaq zəhmət, səbr və əzmkarlığın hesabına uğur qazanmaq mümkündür. Düşünürəm ki, məndə sadaladığım keyfiyyətlər olmasaydı, istəyimə nail ola bilməzdim. Ümumiyyətlə, ASCO-nun gəmilərində gənclərə çox rast gəlmək olar. Buna ancaq sevinmək və onlara stimul vermək lazımdır.

-Hədəfiniz nədir?

- Öncə hazırda aldığım ali təhsilimi bitirmək istəyirəm. Gələcəkdə isə idarəetmə sahəsində işimi davam etdirmək fikrim var.

- Dənizçi dostlarınıza nələri tövsiyə edərdiniz?

- Hər kəsə bu sahəyə gəlməmişdən qabaq hər bir məqamı yaxşı incələməyi və şəxsi fikirləri ilə seçim etmələrini məsləhət görürəm. Peşənizi sevin, daim axtarışda olun, oxuyun, həm də işləyə-işləyə zamanınızı səbrlə gözləyin. Mütləq nəticə yaxşı olacaq.

Rövşən Abdurəhmanov

Azərbaycan Dövlət Dəniz Akademiyası qəbul yerlərinin sayını artırıb

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyası (ADDA) geridə qoyduğumuz tədris ilini uğurla başa vurur. Cari tədris ilində ADDA-ya qəbul olmaq istəyənlərin sayında rekord qeydə alınıb. Həmçinin bu il "Dəniz naviqasiyası" ixtisası üzrə ingilis dilində tədrisə başlanıb.

Statistikaya görə, Azərbaycan Dövlət Dəniz Akademiyasının hazırladığı ixtisaslı kadrlara tələbat çoxalıb. Bunu nəzərə alaraq akademiya 2019-2020-ci tədris ilində qəbul yerlərini 100 yer artırıb.

Bundan başqa, növbəti ildən akademiya daha iki ixtisas – "Gəmi energetik qurğuları və onların istismarı" və "Elektrik mühəndisliyi" ixtisasları üzrə də ingilis dilində tədrisə start verir.

Dəniz Akademiyası ölkədə yeganə ali təhsil müəssisəsidir ki, diplomunu 170-dən çox dövlət tanıyır. Bütün tələbələrə pulsuz forma verilir. Həftənin 5 tədris günü tələbələr ödənişsiz yeməklə (səhər yeməyi və naharla) təmin olunurlar. Bundan başqa, yüksək standartlara cavab verən yataqxana da gənclərin ixtiyarındadır. Həmçinin akademiyanın əlaçı tələbələri dövlətin ayırdığı təqaüddən əlavə, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin xüsusi təqaüdünə də layiq görülürlər. Digər tərəfdən, təhsilini müvəffəqiyyətlə başa vuran məzunlara ASCO-da işləmək məqsədilə "Zəmanət məktubu" da verilir.

"Xəzər dənizinin çirkləndirilməsinin fəsadları və əhaliyə birbaşa təsirləri indi daha qabarıq görünür"

Bəzi çimərliklərdə çirklənmə o həddə çatıb ki, insanların orada çimməsi təhlükəli hesab olunur. Türkan, Hövsan, Şıx, Sahil və Sumqayıt çimərlikləri istifadəyə yararsızdır.

Bu sözləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin rəisi Ərəstun Həsənov mətbuat konfransında deyib.

İdarə rəisi, həmçinin bildirib: "Çimərlik mövsümünün başlanması ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin əməkdaşları Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin nümayəndələri ilə birgə çimərlik sahələrində monitorinqlər keçirib, dəniz suyundan nümunələr götürüb, mikrobioloji təhlillər aparılıb.

Analizlərin nəticələrinə görə Xəzər rayonunun Türkan, Suraxanı rayonu Hövsan, Səbail rayonu Şıx, Qaradağ rayonunun Sahil qəsəbəsinin və Sumqayıtın çimərliklərində zərərli maddələrin miqdarı normadan artıqdır. Bu səbəbdən vətəndaşların qeyd olunan çimərliklərdən istifadə etmələri məqsədəuyğun deyil.

Bilgəh, Mərdəkan, Nardaran, Novxanı, Pirşağı, Zuğulba, Şüvəlan və Buzovna çimərlikləri isə analizlərin nəticələrinə görə çimərlik kimi istifadəyə yararlıdır.

Hazırda Xəzər dənizinin cənub və şimal bölgələrində də monitorinqlər həyata keçirilir, su və dib çöküntüləri nümunələri üzərində təhlillər aparılır".

"Xəzər dənizinin çirkləndirilməsinin fəsadları və əhaliyə birbaşa təsirləri indi, yəni çimərlik mövsümünün başlaması ilə daha qabarıq görünür.

Xəzərin çirkləndirilməsinin qarşısının alınması üçün hüquqi və fiziki şəxslərə, obyekt sahiblərinə etdiyimiz çağırışların, xəbərdarlıqların məqsədi yəqin ki, indi, çimərlik mövsümündə daha da aydın görünür. Çağırış edəndə ki, tullantı sularını dənizə axıtmayın, təmizləyici qurğular quraşdırın, məqsədimiz bu idi ki, insanlarımız təmiz çimərliklərdə istirahət etsinlər. Təəssüf ki, bu gün nəticələr elə də ürəkaçan deyil. Amma reallıq budur ki, bəzi çimərliklərin suyunun təmizliyi qənaətbəxş deyil.

Dənizi çirkləndirənlər bilməlidirlər ki, onların yaxınları da dənizdə istirahət edəcək və çimmək istəyəcək. Heç olmasa bundan sonra öz işlərində dönüş yaratsınlar, çirkab sularını təmizlənmədən dənizə axıtmasınlar", - deyə Ə.Həsənov qeyd edib.

Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri Ziyəddin Kazımov çimərliklərdən bir neçə dəfə nümunələr götürülərək analiz edildiyini və bəzilərində zərərli maddələrin miqdarının normadan çox olduğunu bildirib. Şöbə müdiri həmin ərazilərdəki yaşayış məntəqələrindən dənizə axıdılan çirkab sularının buna səbəb olduğunu diqqətə çatdırıb. Z. Kazımov Nabran, Türkan Hövsanda tədqiqatların davam etdiriləcəyini də vurğulayıb.

Albaniya sularında dəniz borularının inşası yekunlaşıb

Azərbaycan təbii qazını Avropaya nəql edəcək "Trans-Adriatik" (TAP) boru kəmərinin inşası çərçivəsində Albaniya sularında dəniz borularının tikintisi başa çatıb.



Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb. Bildirilir ki, TAP-ın Albaniyada dəniz borularının qaynağı tamamlanıb.

Qeyd edək ki, TAP-ın dəniz hissəsinin mühəndislik, təchizat, tikinti və quraşdırma (EPCI) üzrə podratçısı İtaliyanın "Saipem" şirkəti bu əməliyyatlar üçün "Castoro 10" gəmisindən istifadə edib. Polad borular sahilə 1,4 kilometr məsafədəki gəmidə qaynaqlanıb. Daha sonra sınaqlar aparılıb və borular dənizin dibinə endirilib. 1,8 kilometrlik ilk borular Fier (Albaniya) yaxınlığında sahilə çıxıb.

Uzunluğu 139 metr və eni 36 metr olan "Castoro 10" gəmisi boruları Albaniyanın dayaz sularında döşəyib, bunun ardından fiber-optik kabelin çəkilişi də həyata keçirilib.

TAP ötən ilin oktyabrında boru kəmərinin dəniz hissəsinin tikintisi işlərinə başlayıb. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək. 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq. "Saipem" dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək. Boru kəmərinin Adriatik dənizindən keçəcək hissəsində ümumi tikinti işlərinin 20 faizədək icra olunub.

TAP layihəsi qrafik üzrə davam edir. Layihə üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 87 faizi icra olunub. Hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa edilir.

TAP-ın Yunanıstandan keçən 550 kilometrlik hissəsində ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Bu ölkədə boruların 547 kilometri qaynaq edilib. 535 kilometr boru torpağa basdırılıb. Boru kəmərinin Albaniyadan keçən 215 kilometrlik hissəsində də ərazi təmizlənib və qiymətləndirilib. Boruların 214 kilometri qaynaqlanıb və 177 kilometr ərazi isə tamamilə əvvəlki vəziyyətinə gətirilib. TAP-ın Yunanıstan və Albaniya marşrutunda boruların 98 faizi torpağa basdırılıb.

Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisinin 85 faizdən çoxu tamamlanıb. Kipoidə boruların tədarükü tamamlanıb və boruların 90 faizdən çoxu qurulub. Suyun dayanıqlılıq sınaqları isə qrafik üzrə irəliləyir. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. Lazımi turbo kompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal edilib.

İtaliyada mikrotunelin tikintisi üzrə hazırlıq işləri davam etməkdədir. Hazırda boru kəmərinin qəbulu terminalında, mikrotunel sahəsində və dənizə çıxış hissəsində işlər görülür.

Xatırladaq ki, layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. TAP-la Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

Azərbaycanda ilk üzən elektrik stansiyası inşa edilir

İspaniya Sənaye, Ticarət və Turizm Nazirliyi yanında İxrac və İnvestisiyalar Komitəsi öz portalında "İspaniya şirkəti Asiya İnkişaf Bankının dəstəyi ilə Azərbaycanda ilk üzən günəş elektrik stansiyası inşa edir" sərlövhəli məqalə yerləşdirib.

Məqalədə qeyd edilir ki, Azərbaycan iqtisadiyyatını şaxələndirmək məqsədi ilə alternativ enerji istehsalı sahəsində addımlar atmağa davam edir. Azərbaycan Energetika Nazirliyi ilə Asiya İnkişaf Bankı arasında Böyükşor gölündə fotoelektrik enerjisi istehsalı üçün təcrübi qurğunun tikintisi haqqında saziş bu baxımdan ən son nailiyyətlərdən biridir.

Üzən günəş elektrik stansiyasının tikintisi layihəsi 2018-ci ilin iyulunda elan edilib.

İspaniyanın fənlərarası, məsləhət, idarəçilik xidmətləri göstərilməsində ixtisaslaşan qlobal konsaltinq şirkəti "EQO-NIXUS" 2,6 milyon avro məbləğində müqavilə ötən ilin sentyabrında imzalanandan sonra bu layihənin həyata keçirilməsinə cavabdehdir. Asiya İnkişaf Bankının bəyanatında deyilir ki, bu məbləğ Azərbaycanla bərabər, Əfqanıstan və Qırğızıstan arasında bölüşdürüləcək. Həmin ölkələrdə də günəş elektrik stansiyaları tikiləcək. Bu ölkələrin hər birində layihənin icrası 2021-ci il üçün başa çatmalıdır. Bu zaman generasiya gücü 100 kilovata çatdırılmalıdır.

Bu elektrik stansiyası enerji təhlükəsizliyi məqsədinə xidmət edən Asiya İnkişaf Bankı üçün böyük maraq kəsb edən Azərbaycan ərazisində "təmiz energetika"nın inkişafına güclü təkandır.

Nigar Cəfərli

Ege dənizində Türkiyəni qanunsuz yollarla tərk etmək istəyən təxminən 16 min xarici vətəndaş saxlanılıb

Bu ilin ilk beş ayında Ege dənizində Türkiyəni qanunsuz yollarla tərk etmək istəyən təxminən 16 min xarici vətəndaş saxlanılıb.

Ölkənin sahil təhlükəsizliyi və polis əməkdaşları tərəfindən aparılam əməliyyatlar nəticəsində saxlanılanların əksəriyyəti Yunanıstana keçmək istəyib.

Bu şəxslər arasında aparılan sorğulardan bəlli olub ki, onların ölkələrini tərk etmələrinə daxili qarışıqlıq, müharibələr, iqtisadi və siyasi çətinliklər kimi problemlər səbəb olub.

Bunun qarşısını almaq məqsədilə Türkiyənin sahil mühafizə qüvvələri tərəfindən mühafizə tədbirləri gücləndirilib.

Qeyd edək ki, ötən ilin eyni dövrü ərzində Ege dənizində saxlanılan əcnəbilərin sayı 9 min 756 nəfər olub.

Günel Məlikova

"Dalğa" və "Xəzər" bağçalarında keçirilən tədbirlər uşaqların ürəyincə olub

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) İnsan Resurslarının İdarəedilməsi Departamentinin təşəbbüsü ilə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı ASCO-nun "Dalğa" və "Xəzər" bağçalarında tədbirlər keçirilib.

Tədbirlərdə İnsan Resurslarının İdarəedilməsi Departamentinin rəhbəri Sevda Məmmədova, departamentin gənclərlə iş üzrə koordinatoru Roza Bədəlova, "Dalğa" uşaq bağçasının müdiri Nərgiz Teymurova, "Xəzər" uşaq bağçasının müdiri Xalisə Abdullayeva, müəllimələr və valideynlər iştirak ediblər.

Uşaqlar böyük həvəs və sevgi ilə mahnılar oxuyub, şeirlər səsləndirib və bir-birindən maraqlı rəqslər ediblər.

Bağçalarda məktəbəqədər hazırlıq alan uşaqlara məktəb ləvazimatları ilə dolu çantalar hədiyyə olunub.

Hadisənin təhqiqatı üçün İsveçrənin "Viking Sigyn" kruiz laynerinin ukraynalı kapitanı da dindiriləcək

Macarıstan və Cənubi Koreya dayverləri Dunayda baş vermiş kater qəzasının qurbanlarından daha bir neçəsinin cəsədlərini aşkar ediblər.

Cəsədlər çayın dibində batmış gəzinti katerinin qırıntıları arasından çıxarılıb.

Xatırladaq ki, göyərtəsində 33 nəfər Cənubi koreyalı turist və macarıstanlı iki heyət üzvü olan "Hableány" kateri kruiz layneri ilə toqquşub və suya qərq olub. Sərnişinlərdən 7 nəfəri xilas edilib, 8 nəfərin cəsədləri tapılıb, 20 nəfər isə itkin düşüb.

İsveçrənin "Viking Sigyn" kruiz laynerinin ukraynalı kapitanı hadisənin təhqiqatı üçün saxlanılıb.

Milli polis qərargahından verilən məlumata görə, Xarta kəndinin yaxınlığında, Budapeştdən təqribən 100 kilometr aralıda axın istiqamətində daha bir cəsəd aşkar edilib. Bu cəsəd hələ identifikasiya edilməyib.

Macarıstan Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumata görə, xilasetmə komandaları fasiləsiz işləyirlər.

Pərvanə Qarayeva

"İpək Yolu" festivalı

Nyu-Yorkun mərkəzindəki "Master Theater"da "İpək Yolu" festivalı keçirilib. İpək Yolu Asiya, Avropa və Afrika ölkələrindən 40-dan çox ölkəni quru, eləcə də dəniz yolu ilə birləşdirən mədəniyyət, fikir, sənət və musiqi mübadiləsi festivalıdır. İpək Yolu min illərdir mövcud olmuş ölkələrin mədəniyyətini zənginləşdirib, qarşılıqlı anlaşma, tolerantlıq və hörməti inkişaf etdirib.

Festivalda Azərbaycan, Çin, Gürcüstan, Hindistan, Monqolustan, İsrail, Türkiyə və digər ölkələrin musiqiçiləri və rəqqasları iştirak ediblər. Soydaşlarımızın çıxışlarını izləmək və dəstəkləmək məqsədilə Meyn ştatındakı azərbaycanlı icmasının, Azərbaycan-Nyu York Assosiasiyasının üzvləri, Azərbaycanın ABŞ-dakı səfirliyinin nümayəndəsi tədbirə qatılıb.

Festivalda ölkəmizi Samir Quliyev (Nyu York) "Azərbaycan", Orxan Ağayev (Nyu-York) "Sənə də qalmaz", Emin Eminzadə (Bakı) "Treasure me" və "Синяя вечность" mahnıları, "Mənim Yolum" rəqs qrupu (Nyu York) "Mənim Azərbaycanım", Tahir Eynullayev (Bakı) "Məzəli rəqs" və Səbinə Nəcəfova (Portland) "Uzundərə" rəqsləri ilə təmsil ediblər.

Nyu-York şəhərinin meri Bill De Blazio bu festivalda yüksək səviyyədə iştirak etdikləri üçün "My Way" Uşaq və Gənclərin İnkişafı Mərkəzinin rəhbəri Alyona Bədəlovaya təşəkkür məktubu göndərib.

Yusif Babanlı

Sarı dənizdən kosmosa raket buraxılıb

Çin Sarı dənizdəki ərazi sularından ilk dəfə olaraq kosmosa raket buraxılışını həyata keçirib.

Çinin kosmos sənayesində yeni mərhələnin başlanğıcı hesab olunan raket buraxılışı yerli vaxtla günorta saat 12:06-da (Bakı vaxtı ilə səhər 8:06) baş tutub. "Long March 11" daşıyıcı raketi dənizdəki mobil məntəqədən buraxılıb. Raketin missiyası 6 peyki Yer səthindən 600 kilometr yüksəklikdə orbitə qaldırmaqdır. Bu, həm də dünyada son beş ildə dənizdən ilk raket buraxılışıdır.

"Çin kosmonavtika elmləri və texnologiyaları" korporasiyası mütəxəssislərinin hazırladıqları raketin uzunluğu 20,8, diametri isə 2 metrdir. 2015-ci ildən etibarən 6 "Long March 11" raketinin buraxılışı həyata keçirilib. Həmin daşıyıcı raketlər ümumilikdə 25 peyki orbitə çıxarıb.

Qeyd edək ki, dənizdən orbitə ilk raket buraxılışı 1967-ci ilin aprelində Keniyanın sahil sularından həyata keçirilib. ABŞ mütəxəssislərinin hazırladıqları həmin raket İtaliyaya məxsus mobil platformadan buraxılmışdı. Sonuncu belə raket buraxılışı isə 2014-cü ildə Sakit okeandakı "Odissey" platformasından baş tutub.

Şahin Cəfərov

Qayıqda təqribən 1000 kiloqrama yaxın narkotik vasitə aşkar edilib

Yaponiya polisi dəniz sahilindəki şübhəli qayıqda ölkə tarixində rekord miqdarda qeyri-leqal narkotik vasitə müsadirə edib.

Yaponiyanın şərqində yerləşən Şizuoka prefekturasının sahillərindəki qayıqda təqribən 1000 kiloqrama yaxın narkotik vasitə aşkar edilib. Həmin narkotik vasitənin küçə qiymətinin təqribən 555 milyon dollar təşkil etdiyi bildirilir.

Polis həmin qayığın yaxınlığında olan yeddi nəfər Çin vətəndaşını gəlir əldə etmək məqsədilə qeyri-qanuni narkotik vasitəyə malik olmaqda şübhəli qismində saxlayıb. Polis həmin şəxslərin narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə məşğul olan beynəlxalq qaçaqmalçılar qrupu və yapon mütəşəkkil cinayətkar sindikatı ilə əlaqəli olmasından şübhələnir.

Vüqar Ağayev

Planetlərdən biri İmadəddin Nəsiminin adını daşıyacaq

Böyük Azərbaycan şairi Seyid İmadəddin Nəsiminin 650 illiyi ilə əlaqədar Beynəlxalq Astronomiya İttifaqı (BAİ) kiçik planetlərdən birinə onun adının verilməsi barədə qərar qəbul edib.

Müvafiq vəsatət Azərbaycan astronomu, fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, BAİ üzvü Əyyub Quliyev tərəfindən qaldırılıb.

Nəsimi planetinin kataloq nömrəsi 32939, hərəkət zonası isə Mars və Yupiter planetlərinin arasındakı asteroid qurşağıdır. Bu planet 1995-ci ilin oktyabrın 24-də Çexiya astronomları tərəfindən Klet rəsədxanasında aşkar edilib və uzun müddət 1995 UN2 şərti ad daşıyıb. İndiyədək o, dünyanın müxtəlif rəsədxanalarında 807 dəfə müşahidə olunub.

Xəzər dənizinə buraxılan körpə balıqların sayı milyonlarla ölçülür

Ölkə sularında balıq ehtiyatlarının azalmasının qarşısını almağa xidmət edən müəssisələrdən biri də Lənkəranda fəaliyyət göstərən Kiçik Qızılağac Balıqartırma təsərrüfatıdır. Uzun illərdir fəaliyyət göstərən müəssisə Xəzər dənizinə ilin əvvəlindən bəri təbii və süni yolla yetişdirdiyi 120 milyon körpə balıq buraxıb.

1956-cı ildən fəaliyyətə başlayan Lənkərandakı Kiçik Qızılağac Balıqartırma təsərrüfatı uzun illər yalnız təbii balıq artırma ilə məşğul olub. Kütüm balıqlarının süni yolla çoxaldılmasına isə 1980-ci ildən başlanılıb. Müəssisənin yaradılmasında əsas məqsəd balıq ehtiyatlarının azalmasının qarşısının alınmasıdır.

Mütəxəssis Elmar Yusubov deyir ki, may ayının əvvəllərində ana və erkək balıqların kütüm törədiciləri qəbul edilir: "Bir ana kütümdən 40-80 min arası körpə balıq almaq mümkündür. Bu, əsasən balığın yaşından və çəkisindən asılıdır. Xüsusi hovuzlarda hava şəraiti və temperaturdan asılı olaraq mayalanma prosesi gedir. 7-9 gün ərzində isə balıq körpələri əmələ gəlir".

Körpə kütümlər hovuzlarda bir neçə gün təbii yemlərlə qidalandırılır. Daha sonra Xəzər dənizinə yaxın ərazidəki balıqkeçici kanallara buraxılır.

Yanvar ayında müəssisədə təbii törədici balıq fondu da fəaliyyətə başlayıb.

Kiçik Qızılağac Balıqartırma təsərrüfatının direktoru Dadaş Abbasovun sözlərinə görə, təbii törədici fondda çəki balığı, enlialın, ağ amur, Xəzər amuru və külmə balığı yetişdirilir. Əsas məqsəd təbii yolla balıqartırmanın çoxaldılmasıdır.

Tələbat çox olduğu üçün kütüm balıqlarının artırılmasına xüsusi diqqət göstərilir. Hər il dənizə milyonlarla körpə törədici buraxılır.

"Çalışırıq ki, Xəzərdə nəsli kəsilməməsi üçün kütüm körpələrini çox artıraq. İndi 2 milyon 366 min kütüm körpəsi dənizə buraxılır. Keçən illə müqayisədə bu il daha çox törədici müşahidə olunur. Havalar bir az sərt keçdiyi üçün cənub bölgəsində mövsüm yubanıb. Mövsümün gecikməsinə baxmayaraq, əlimizdən gələni edirik ki, ötənilki tempi saxlayaq və balıq körpələrinin dənizə buraxılışını təmin edək", - deyə Dadaş Abbasov bildirib.

Müəssisədə kütüm törədicilərinin istehsal prosesi iyunun 15-dək davam edəcək. Təbii törədici balıq fondunun fəaliyyət göstərməsi gələcəkdə süni balıqartırmada kütüm törədicilərinin sayının 40-45 milyona çatmasına imkan verəcək.

İsmayıl Cəfərli

Gəmi nəhəng dalğalar və pis hava şəraiti nəticəsində çevrilərək batıb

İndoneziyanın Mərkəzi Sulavesi əyaləti sahillərində yük gəmisi batıb.

Hadisə nəticəsində 17 nəfər itkin düşüb.

Göyərtəsində 18 heyət üzvünün olduğu gəmi mayın 1-də qəzaya uğrayıb. Lakin hadisə barədə mayın 4-də, Hindistana məxsus "Nurbayaksar" gəmisinin heyəti zərərçəkənlərdən birini xilas etdikdən sonra məlum olub.

Axtariş-xilasetmə xidmətinin nümayəndəsinin bildirdiyinə görə, gəmi nəhəng dalğalar və pis hava şəraiti nəticəsində çevrilərək batıb. Mühərrik dayandıqdan sonra heyət üzvləri gəminin idarəsini itiriblər və nəhəng dalğalar onu çevirib.

Hazırda axtarış-xilasetmə əməliyyatı davam etdirilir.

Rezin qayıqda köməksiz vəziyyətdə qalan 90 miqrant xilas edilib

İtaliya Hərbi Dəniz Qüvvələrinə məxsus gəmi Liviya sahillərində rezin qayıqda köməksiz vəziyyətdə qalan 90 miqrantı xilas edib.

ANSA agentliyi xəbər verir ki, Aralıq dənizində fəlakətlə üzləşən miqrant gəmiləri üçün nəzərdə tutulan "qaynar xətt" miqrantlarla son danışıqları cümə axşamı saat 8 radələrində qeydə alıb. Onlar qayıqda 5 yaşlı qızın öldüyü barədə məlumat veriblər.

Havanın kəskin pisləşməsi və qayığın mühərriksiz olması nəticəsində miqrantlar dənizdə köməksiz qalmışdılar.

Asiman Əsədov

Əlverişsiz hava şəraiti xilasetmə işlərini çətinləşdirib



Budapeştin mərkəzində Dunay çayında gəzinti katerinin çevrilməsi nəticəsində 7 nəfər ölüb.

Bu barədə "Reuters" agentliyi məlumat yayıb. MTI-nin məlumatına görə, katerdə 34 nəfər ola bilərdi. Daha əvvəl 3 nəfərin öldüyü, 16 nəfərin itkin düşdüyü bildirilmiş, 14 turistin xilas olduğu qeyd edilmişdi.

TASS informasiya agentliyinin verdiyi xəbərə görə, Macarıstan Xilasetmə Xidməti zərərçəkənlər arasında Şərqi Asiya, xüsusən Çin vətəndaşlarının üstünlük təşkil etdiyini bildirib. Katerdə Koreya Respublikasının da vətəndaşları olub. Hadisə Dunay çayının Macarıstan parlamenti qarşısından keçən hissəsində iki gəzinti katerinin toqquşması nəticəsində baş verib. Əlverişsiz hava şəraiti xilasetmə işlərini çətinləşdirib.

1200 kiloqram köpək balığı üzgəci müsadirə edilib

Belçika paytaxtındakı "Zaventem" aeroportunda gömrük xidməti əməkdaşları köpək balığı üzgəclərinin böyük partiyasını müsadirə ediblər.

Brüssel polisinin məlumatına görə, qeyri-qanuni yük Liberiyadan gəlib və Honkonq üçün nəzərdə tutulub. Əməliyyat gömrük xidməti, Ərzaq Məhsullarının Təhlükəsizliyi üzrə Federal Agentlik və Federal Səhiyyə Departamenti ilə birgə aparılıb.

24 kisədə gizlədilən 1200 kiloqram üzgəc sənəddə "quru balıq" adı altında göstərilib. Hesablamalara görə, bu həcmdə yük üçün təqribən 2000-dək köpək balığı öldürülməlidir. Köpək balıqlarının bəzi növləri məhvolma təhlükəsi ilə üz-üzədir və bir çox ölkənin qanunları ilə müdafiə edilir.

Asiya ölkələrində köpək balıqlarının üzgəclərindən şorba hazırlamaq üçün istifadə olunur.

Köpək balığının hücumu itkisiz ötüşməyib

Havay arxipelaqına daxil olan Maui adası rayonunda köpək balığının hücumu nəticəsində bir nəfər ölüb.

Xarici KİV-lərin verdiyi xəbərə görə, köpək balığı sahildən təqribən 50 metr aralıda suda olan 65 yaşlı Kaliforniya sakininə hücum edib.

Hadisənin baş verdiyi çimərlikdə xəbərdarlıq işarələri quraşdırılıb.

Bu, ilin əvvəlindən Havay adaları rayonunda köpək balıqları tərəfindən artıq üçüncü hücumdur.

Yaxtaların toqquşması nəticəsində bir turist həyatını itirib



Fransanın Kann şəhərində yaxtaların toqquşması nəticəsində 29 yaşlı Britaniyalı turist həyatını itirib. Qalan 17 nəfər limana təhlükəsiz şəkildə çatdırılıb.

Kann film festivalının son gecəsində meydana gələn toqquşmanın səbəbi polis tərəfindən araşdırılır.

Fransa Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, həlak olan sərnişinin ailəsi ilə əlaqə saxlanılacaq və onun cəsədi yerli hakimiyyət orqanlarına təhvil veriləcək.

Aynurə Tağıyeva

Dənizin və küləyin enerjisinin yaratdığı həzin musiqi

Xorvatiyada 80 metr uzunluğu olan dənizin dalğaları və küləyin gücündən istifadə edən orqan musiqi aləti düzəldilib.

Layihənin arxitektoru xorvat əsilli Nikola Bassiydir. Adriatik dənizinin suyu və külək dənizin önündə olan beton pilləkənlərin dəliklərinə daxil olaraq yuxarı dəliklərə tərəf hərəkət edir və gözəl həzin musiqi yaradır. Zadar şəhərində yerləşən bu arxitektura nümunəsi özünə çoxlu sayda turist cəlb edir.

İqbal Hacıyev

Sakit okeanın xilası bütün planetin xilası deməkdir

Birləşmiş Millətlər Təşkilatının rəhbəri dünya liderlərinə üç təcili çağırışla müraciət edib: çirkləndirmələrə vergi tətbiq etmək, kömürlə işləyən elektrik stansiyalarının tikintisini və mədən yanacağı hasilatına maddi yardım ayırmağı dayandırmaq.

BMT-nin saytı xəbər verir ki, baş katib Antonio Quterreş Sakit okean ölkələrinə turnesi çərçivəsində Yeni Zelandiya, Fici, Tuvalu və Vanuatuya səfərinin sonunda bu bəyanatla çıxış edib. Baş katibin sözlərinə görə, o bir daha əmin olub ki, qlobal istiləşmə ada dövlətlərinin mövcudluğuna təhlükə yaradır.

BMT başçısı deyib: "Ötən həftə mən Sakit okeandakı ada dövlətlərində iqlim dəyişmələrinin nəticələrini gördüm. Həmin dövlətlər bu hadisədə hamıdan az təqsirkar olsalar da, onun fəsadlarından daha çox əziyyət çəkirlər".

O vurğulayıb ki, iqlim dəyişmələri ilə mübarizədə energetika, nəqliyyat, sənaye və kənd təsərrüfatı sahələrindəki siyasətə yenidən baxmaq lazımdır.

"Biz insanların qazancına deyil, atmosfer çirkləndirmələrinə vergi tətbiq etməli, ikincisi, mədən yanacağı hasilatına maddi yardım ayırmağı dayandırmalıyıq. "Vergiödəyicilərinin pulları qasırğanın daha da güclü olmasına, dünyanın quraqlıq və istidən əziyyət çəkməsinə, mərcanların rəngini itirməsinə, buzlaqların isə əriməsinə sərf olunmamalıdır", - deyə BMT başçısı bildirib.

2020-ci ilədək kömürlə işləyən yeni elektrik stansiyalarının tikinsinin dayandırılmasının vacibliyindən danışan Antonio Quterreş gələcəyin "boz" iqtisadiyyat üçün deyil, "yaşıl" iqtisadiyyat üçün parlaq olacağını bildirib.

BMT başçısı qeyd edib ki, söhbət təkcə Sakit okeanın xilasından deyil, bütün planetin xilasından gedir. O deyib: "Sakit okeanın xilası bütün planetin xilası deməkdir".

Plastik kütlə mikrohissəcikləri dəniz məhsulları vasitəsilə insan orqanizminə düşə bilər

Təqribən 220 növ dəniz canlısının orqanizmləri plastik kütlə mikrohissəciklərini udur. Onların yarıdan çoxu insan tərəfindən qidada istifadə edilir. Buraya quşlar, ətsbağalar və məməlilər aid edilmir. İri balıqların əti insan üçün təhlükəli deyil, çünki mikrohissəciklər balığın yalnız bağırsaqlarında qalır ki, bu da qidada istifadə olunmur. Əsas təhlükəni dəniz məhsulları təşkil edir. Çünki onların içalatı əvvəlcədən təmizlənmir.

Bu barədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) yeni hesabatında bildirilir. Məruzənin müəllifləri plastik kütlənin beş millimetr və ondan aşağı diametrdə olan xırda hissəciklərinin ətraf mühitə və insan sağlamlığına təsirini tədqiq ediblər.

1950-ci ildən başlayaraq, plastik məhsulların istehsalı və istehlakı daim artır. 2015-ci ildə bu göstərici 350 milyon ton təşkil edib. Əsrin ortalarında bəşəriyyətin ildə 1 milyard ton plastik kütlə istehsal edəcəyi gözlənilir. Mikrohissəciklər butulka, stəkan, balıqçılıq torları kimi iri məhsulların parçalanması nəticəsində, həmçinin xırda elementlərdən ibarət müxtəlif materialların, məsələn, abraziv (cilalayıcı) tozunun istehsalı zamanı əmələ gəlir.

Toksinlər insan orqanizminə su, hava və dəniz orqanizmləri vasitəsilə düşür. Xüsusilə də bu, içalatı qabaqcadan təmizlənməyən dəniz məhsullarına aid edilir. Lakin iri balıq da təhlükə mənbəyi ola bilər, çünki plastik kütlənin nanohissəcikləri balığın bağırsağından hoparaq qan damarına düşə bilər.

Məruzə müəllifləri bəşəriyyəti birdəfəlik plastik qablaşdırmalardan istifadə etməməyə, onu dənizə atmamağa, balıqçılıq ləvazimatlarının plastik elementlərini daha ekoloji təmiz variantlarla əvəz etməyə, həmçinin inkişaf etməkdə olan ölkələrdə plastiklə çirkləndirmələrin monitorinqini təkmilləşdirməyə çağırıblar.

Azərbaycanda plastikdən düzəldilən məhsullardan istifadənin azaldılması istiqamətində işlər aparılır. "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı" təsdiq edilib.

"Dənizdəki balıqların 90 faizindən çoxu ovlanır"

Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş biomüxtəlifliyin sürətlə itirilməsinə görə çox narahatdır. Ev quşlarından tutmuş zürafə və filədək, iri bitkilərdən və mərcanlardan tutmuş xırda həşəratlaradək minlərlə heyvan və bitki növlərinin nəsli kəsilmək təhlükəsi yaranıb.

Bu fikirlər Baş katibin mayın 22-də qeyd edilən Beynəlxalq Bioloji Müxtəliflik Gününə həsr olunan müraciətində əks olunub. A.Quterreş planetimizdə həyatın qorunması üçün vacib olan flora və fauna müxtəlifliyinin çox sürətlə itməsi prosesini dayandırmağa çağırıb.

BMT Baş katibinin müraciətində deyilir: Bioloji müxtəliflik – istər ayrı-ayrı növlərin, istərsə də bütöv ekosistemlərin müxtəlifliyi insanın sağlamlığı və rifahının dəstəklənməsi üçün zəruridir. İçdiyimiz suyun, yediyimiz qidanın, udduğumuz havanın keyfiyyəti təbiətin sağlamlığının qorunmasından asılıdır".

"Bu gün dünya ekosistemləri təhlükədədir", - deyə A.Quterreş xəbərdarlıq edib. Bunu dünyanın 50 ölkəsindən 145 alimin 3 il ərzində üzərində işlədiyi biomüxtəliflik və ekoloji sistem üzrə hökumətlərarası elmi-siyasi platformanın bu yaxınlarda dərc olunmuş məruzəsi də təsdiqləyir.

Sənəddə qeyd olunur ki, təxminən 1 milyona yaxın flora və fauna növü tamamilə yox olmaq təhlükəsi ilə üzləşib. Bir çox heyvanlar və bitkilər artıq yaxın onilliklərdə həmişəlik itə bilər. Dənizdəki balıqların 90 faizindən çoxu ovlanır və ya onların ehtiyatları əhəmiyyətli dərəcədə azalır. 1990-cı ildən bəri Yer kürəsində 28,7 milyon hektar meşənin məhv olduğunu bildirən Baş katib xatırladıb ki, məhz meşələr atmosferə atılan zərərli karbon qazı tullantılarının udulmasına kömək edir.

BMT başçısı hər kəsi planetimizin bioloji zənginliyinin mühafizəsi üçün təcili tədbirlər görməyə çağırıb.

Konteynerləri Kanadaya aparan gəmi icarəyə götürülüb

Mayın 31-də səhər saatlarında içərisinə tullantıların yığıldığı konteynerləri daşıyan gəmi Filippinin Sybik limanından Kanadanın Vankuver şəhərinə yola salınıb.

Bu barədə CBC telekanalı məlumat yayıb.

Maniladan təqribən 100 kilometr məsafədə yerləşən limanda gəminin yüklənməsini Kanadadan və Filippindən olan diplomatlar izləyiblər.

Xatırladaq ki, mayın 16-da Filippin Kanadadakı səfirini və konsulunu bu ölkə 2013-cü ildə ona məxsus içərisində emal edilməmiş tullantı olan 69 konteyneri vaxtında geri qaytarmadığına görə geri çağırıb. Filippin Xarici İşlər Nazirliyinin (XİN) bildirdiyinə görə, bunun üçün Ottavaya mayın 15-dək vaxt verilsə də, həmin müddətə əməl edilməyib. Kanada XİN-i Manilanın qərarından təəssüfləndiyini bildirərək, konteynerlərin tezliklə geri qaytarılacağını bildirib.

Mayın 22-də Kanadanın ətraf mühit və iqlim dəyişmələri naziri Ketrin Makkenna bildirib ki, Ottava həmin konteynerləri iyunun sonlarında qaytarmaq üçün nəqliyyat şirkəti ilə razılıq əldə edib. Həmin müddət Manilanı razı salmadığına görə, Prezident Rodriqo Dutertenin göstərişi ilə konteynerləri Kanadaya aparacaq gəmi icarəyə götürülüb. Ottava nəqliyyat xərclərinin ödəniləcəyinə razılıq verib.

Vüqar Ağayev

YARIZARAFAT, YARIGERÇƏK

Üz hansı qalınlıqda olanda söz təsir eləmir?

Bəziləri düzdən qorxduğu kimi heç nədən qorxmur.

Doğruya oğrunun oğurlaya biləcəyindən artıq dəyər verilməyən yerdə oğru doğrudan çox olar.

Hədəfə dəyməyəcək oxu atma. Bir ox da dala düşərsən.

Qəbahətlərini üzlərinə dediklərimin hamısı indi mənimlə düşmənçilik edir. Bu da mənim qəbahətimdir.

Bu qədər adam cəhənnəmlik iş görürsə, deməli ən az cəhənnəmdən qorxurlar.

Gücümüzə bax e... Allahın üzümüzə açdığı bütün qapıları üzümüzə bağlamaqdan yorulmuruq.

İki gözü olanın gözləri üstə ən çox neçə yer ola bilər?

Həyatlarını bu dünyada cəhənnəmə döndərənlər də cəhənnəmə inanmırlar?

Vəzifə kiminsə ağlını artırsaydı, dəlixanalara ehtiyac olmazdı.

İşi çox olanın adətən pulu olmur.

Həyat, şirinlik qatdığın qədər şirin olur.

Torpaq baha olduğu üçün bəziləri əməllərinə görə, ölüb yerə girmirlər?

Yol həyatdır, həyat da yol. Uzunu, qısası olur.

Bəziləri niyə ya zəhlə tökür, ya da qaşqabaq.

Əvvəl tanı, sonra dost ol.

Geriyə yalnız səhvləri düzəltmək üçün bax.

Əldə etmədiklərin əldə etməyə çalışmadıqlarındır.

Havanı dəyişdirə bilməzsən. Amma pis hava şəraitinə hazır ola bilərsən.

"Düzələr" sözündən zəhləm gedir. Bir ömürdü "düzələr" eşidirəm.

Görmək istəmədiyin adamları görməmək üçün hara getmək lazımdır?

Özlərini tanımayanlar özlərini daha yaxşı tanıtdırırlar.

Hətta pula əl çirki kimi baxanlar da pul üçün natəmiz yollara getməməlidirlər.

Pul pis şey deyil. Amma istəyirəm ki, bəzi adamların ağlı da olsun.

Mənə bir ağıllı adam göstərin ki, kimisə öldürüb? Belə isə, ağıllı adamlardan niyə qorxurlar?

Qadınların gücü kişilərə çatmasa, kişilərin gücü heç nəyə çatmaz.

Axmaq adamların əhatəsində hətta həkimlər də özlərini rahat hiss eləmirlər.

Qadınları dərk etməyən kişilərin həyatı dərk etdiklərini düşünmək gülünc deyil?

Onsuz da bu həyatda əzab çox çəkmişəm. Məni axmaqların söhbətinə qulaq asmağa da məcbur eləməyin.

Bəziləri bilsə ki, böyük-böyük danışanda nə qədər kiçilirlər, heç vaxt ağızlarını açmazlar.

Rəssam olmasan da, öz həyatına bir az rəng qat.

Soğan nə qədər bahalaşmalıdır ki, keyfimizə də doğramasınlar?

Ölməkdən yox, düzgün yaşamamaqdan qorxmaq lazımdır.

Həyatdan nə istədiyinə çalışmazdan əvvəl, nə istədiyinin vacibliyinə əmin ol.

Utanandan namərdlik gözləmə.

İnsanın qəlbini sındırmaqdan başqa, sındırdığımız istənilən şeyə təəssüfləniirik.

Hər kəs doğru yolda olduğunu düşünür və heç kəs düşünmür ki, bu qədər doğru yol olmur.

Rasif TAHİROV

“Ən yaxşı hakim”

Azərbaycanın taekvondo üzrə yarışları idarə edən hakimləri beynəlxalq yarışda uğur qazanıblar.

İyunun 8-9-da Avstriyanın İnnsbruk şəhərində keçirilmiş taekvondo üzrə "Austria Open" G1 dərəcəli beynəlxalq turnirdə döyüşləri idarə edənlər arasında iki ədalət təmsilçimiz növbəti dəfə yarışın “ən yaxşı hakimi” adına layiq görülüb.

Belə ki, Azərbaycan Taekvondo Federasiyasının baş hakimi Elşən Quliyev, eləcə də Elşad Məmmədov, Coşqun Nadirov, Aygül Abdullayeva və Nigar Hacıyevanın iştirak etdiyi yarışda hakimlərimizdən Elşad Məmmədov və Nigar Hacıyeva idarə etdikləri döyüşlərdə verdikləri düzgün qərarları ilə bu titula yiyələniblər.

Qeyd edək ki, beynəlxalq dərəcəli hakimlərimiz əvvəllər də Almaniya və digər ölkələrdə keçirilmiş müxtəlif yarışlarda Azərbaycanı yüksək səviyyədə təmsil edərək ən ədalətli hakim seçiliblər.

İki güləşçimiz İspaniyanın Pontevedra şəhərində keçirilən Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb

Azərbaycanın iki gənc güləşçisi Turan Bayramov və Abubakr Abakarov İspaniyanın Pontevedra şəhərində keçirilən Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

57, 65, 70, 79 və 97 kiloqram çəki dərəcələrində gənc sərbəst güləşçilər qızıl medal uğrunda mübarizə aparıblar.

Çempionatda 65 kiloqram çəki dərəcəsində çıxış edən Turan Bayramov sakkizdəbir finalda Gürcüstandan olan güclü rəqibinə minimal fərqlə qalib gəlib. Pəhləvanımız sonra Fransa təmsilçisini üstələyərək yarımfinala yüksəlib. Yeniyetmələr arasında dünya, Avropa və olimpiya çempionumuz yarımfinalda Moldova güləşçisini məğlub edərək finala vəsiqə qazanıb. Həlledici görüşdə Rusiya idmançısı ilə qarşılaşan Gəncə güləş məktəbinin yetirməsi hesab 1:1 olarkən sonuncu xal prinsipinə əsasən qalib gələrək Avropa çempionu olub.

Yetmiş doqquz kiloqram çəki dərəcəsində yarışan Abubakr Abakarov qitə birinciliyinə inamlı start verib. Təmsilçimizə Belarus güləşçisini məğlub etmək üçün cəmi 1 dəqiqə 30 saniyə kifayət edib. Komandamızın üzvü Litva idmançısını da vaxtından əvvəl 11:0 hesabı ilə məğlubiyyətə uğradaraq yarımfinala adlayıb. İdmançımız bu mərhələdə estoniyalı rəqibi üzərində də qələbə qazanaraq finala yüksələn ikinci sərbəst güləşçimiz olub. Həlledici qarşılaşmada Rusiya güləşçisini də üstələyən A.Abakarov Avropa çempionatının qalibi olub.

İndiki komandasında vəziyyəti Mbappenin xoşuna gəlmir

Fransanın “Pari Sen-Jermen” futbol komandasının hücumçusu Kilian Mbappe İspaniyanın “Real” klubuna keçmək istəyir.

“Qazeta.ru” saytının İspaniyada çıxan ABC qəzetinə istinadla verdiyi məlumata görə, Mbappenin indiki komandada vəziyyəti onun xoşuna gəlmir. Fransız idmançı hesab edir ki, onun rolu hücumçu Neymarın rolundan heç də az deyil. Bu səbəbdən Mbappe də braziliyalı qədər, yəni ildə 36 milyon avro məvacib almaq istəyir.

Ehtimal edilən transferin məbləği təqribən 230 milyon avro olacaq. Hazırda transfer rekordu PSJ-yə məxsusdur. Bu komanda Neymarı “Barselona”dan almaq üçün 222 milyon avro ödəyib. Mbappenin “Monako”dan PSJ-yə transferi isə təqribən 180 milyon avroya başa gəlib.

Ötən mövsümdə Mbappe PSJ-nin heyətində bütün turnirlərdə 43 matçda oynayıb, 39 qol vurub və 17 səmərəli ötürmə edib. 2018-ci ilin dünya çempionu olan bu hücumçu PSJ-nin heyətində iki dəfə (2017/18, 2018/19) Fransa çempionu, Fransa Liqası Kubokunun (2017/18) və Fransa Kubokunun sahibi (2017/18) olub. Bundan əlavə, Mbappe “Monako”nun heyətində ölkə çempionu olub (2016/17).

Neymar “Real” komandasının təklifinə rədd cavabı verib

“PSJ”nin hücumçusu Neymar “Barselona”ya qayıtmaq istəyi səbəbindən Madridin “Real” komandasının təklifinə rədd cavabı verib.

Bu barədə “Sport.es” saytı bildirir.

Qeyd olunur ki, braziliyalının ətrafındakılar “Real”ın təqdim etməyə hazır olduğu şərtləri diqqətlə öyrəniblər. Lakin Neymar özü imtina edib, çünki o, “Barselona”nın heyətində oynamaq arzusundadır. Mənbə bildirir ki, “Real” klubu forvarda ildə 45 milyon avro məvacib təklif edib, transferə görə isə onlar 350 milyon avro ödəməyə hazır idilər.

Mayın sonunda bildirilmişdi ki, “Barselona” Neymarı qaytarmaq niyyətindədir. Bunun əvəzində “Barselona” parislilərə yarımmüdafiəçisi Usman Dembeleni və əlavə pul təklif edib. Fransa KİV-lərinin məlumatına görə, braziliyalının özünün partnyorları ilə münasibəti mürəkkəbdir. Belə ki, Kilian Mbappe başda olmaqla bir qrup futbolçu ona qarşı mövqedən çıxış edir.

Neymar “PSJ”nin heyətində 2017-ci ilin yayından oynayır. O vaxt onun transferi üçün parislilər “Barselona”ya rekord məbləğ – 222 milyon avro ödəmişdilər. Hazırkı klubun heyətində braziliyalı iki dəfə Fransa çempionatının qalibi olub. 2018/2019-cu illər mövsümündə 27 yaşlı forvard “PSJ”də keçirdiyi 28 oyunda 23 topun və qolla nəticələnən 13 ötürmənin müəllifidir.

Ən varlı qadın idmançı

Amerikalı tennisçi Serena Uilyams “Forbes” jurnalına görə ilk ən varlı qadın idmançı kimi tarixə düşüb.



Bu barədə nəşrin “Twitter” səhifəsində məlumat verilib.

Otuz yeddi yaşlı idmançının qazancı 225 milyon dollara çatıb. Qadın Tennis Assosiasiyasının (WTA) açıqladığı məlumata görə, tennisçinin idman karyerası ərzində qazandığı mükafatların həcmi 88,5 milyon dollar təşkil edib.

Amerikalı idmançı şəxsi yarışlarda 23 qələbə ilə “Böyük dəbilqə” turnirinin rekordçusu sayılır.

WTA turnirində 72 qələbə qazanan idmançı, ardıcıl 186 həftə qurumun reytinq cədvəlində lider olub. Bu göstəriciyə görə o, almaniyalı Şteffi Qrafla birinci yeri bölüşür.

Qeyd edək ki, Serena cütlüklərin yarışında üçqat Olimpiya çempionudur. Tennisçi 2012-ci ildə şəxsi yarışlarda Olimpiya çempionu olub.

“AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ

AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI

2019/2020-ci tədris ilində ingilis dilli qruplarda adları aşağıda göstərilən fənləri tədris etmək üçün əməyi saathesabı (yüksək tariflə) ödənilməsi şərtilə professor-müəllim heyətinin (pedaqoji iş təcrübəsi və ingilis dili səviyyəsi yüksək olanlara üstünlük verilir) müqavilə əsasında işə qəbulunu

E L A N E D İ R :

- Azərbaycan tarixi
- Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları
- Fəlsəfə
- İnformatika
- Tərsimi həndəsə və mühəndis qrafikası
- Materialşünaslıq və materiallar texnologiyası
- Gəmi elektrik avadanlıqları
- Tətbiqi mexanika
- Gəmi quruluşu və nəzəriyyəsi
- Dəniz naviqasiyasının texniki vasitələri
- Mülki müdafiə
- Dənizdə həyat fəaliyyətinin təhlükəsizliyi və dəniz mühitinin qorunması
- İngilis dili
- Riyaziyyat
- Kimya
- Fizika

Sənədlər iyunun 15-dək ADDA-nın Zərifə Əliyeva küçəsi, 18 ünvanında yerləşən əsas binasında qəbul edilir.

Əlaqə telefonu: 498-56-32
REKTORLUQ

A L L A H R Ə H M Ə T E L Ə S İ N

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi İnzibati işlər və vətəndaş müraciətləri ilə iş üzrə departamentin aparıcı mütəxəssisi İzafət Məmmədova, qardaşı

Hilal Cəlal oğlu Məmmədovun

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Texniki şöbənin mühəndisi Oleq Bolotnikova, anası

Tamara Sergeyevna Bolotnikovanın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bizə can verən qan



Dünyanın ən bahalı avtomobili də keyfiyyətsiz yanacaqla ya pis işləyir, ya da ümumiyyətlə işləmir. Orqanizm də belədir: əgər qan toksiki maddələrlə zəhərlənibsə və normal deyilsə, həyat fəaliyyəti pozulur. Qan orqanizmdə müxtəlif funksiyaları yerinə yetirən qırmızı rəngli mayedir. Ona qırmızı rəng verən tərkibi müxtəlif hüceyrələrdən ibarət dəmir birləşmələridir.

Qanın xüsusiyyətləri barədə həkim-hematoloq, tibb üzrə fəlsəfə doktoru Sevinc Əlifəttahzadə AZƏRTAC-a məlumat verib: “Nüvəsiz qan hüceyrələri olan eritrositlər stroma və yarımmaye kütlədə həll olmuş hemoqlobindən ibarətdir və onun əsas vəzifəsi qaz mübadiləsində iştirak etməkdir. Eritrositlər plastik olduğuna görə formasını dəyişərək uzanır və incə kapilyarlardan keçə bilir. Qanın qruplara ayrılması da eritrositlərlə əlaqədardır. Böyük fizioloji əhəmiyyətə malik leykositlər girdə rəngsiz nüvəli hüceyrələrdir. Onlar hərəkət edərək bakteriya, hüceyrə qırıntıları və yad cisimcikləri tutub fermentlər vasitəsilə əridir. Leykositlərin miqdarının artması leykositoz, azalması isə leykopeniya adlanır.

Çoxlu miqdarda granül ehtiva edən rəngsiz hüceyrə parçaları olan trombositlər, qanın laxtalanmasında əhəmiyyətli rol oynayır. Megakaryosit deyilən sümük iliyinin böyük hüceyrələrinin parçalarından meydana gələn trombositlər ortalama 10 günə qədər yaşayarlar. Ömrü dolan trombositlər dalaq və qaraciyərdəki xüsusi elementlər tərəfindən yox edilər. Trombositlərin tərkibində bioloji aktiv maddələr olan sitoplazmatik qranullar var.

Qan oksigeni ağciyərdən toxumalara və karbon qazını toxumalardan ağciyərə, qida maddələrini həzm orqanlarından toxumalara aparır, maddələr mübadiləsinin lazımsız məhsullarını, həmçinin artıq su, duz və turşunu toxumalardan çıxarır, orqanizmə düşən yad cisimlərə qarşı mübarizə aparır, laxtalanma qabiliyyəti sayəsində itkilərdən mühafizə edir.

Qan arteriya, vena və kapilyarlar vasitəsilə hərəkət edir. Həyəcan keçirərkən qanda böyrəküstü vəzin ifraz etdiyi adrenalin hormonu və onun nəticəsində ürək döyüntüləri artır. Qanın dövr etməsində kapilyar damarlarının böyük əhəmiyyəti var. Elm sübut edib ki, əsəb gərginliyi keçirəndə qan qatılaşır, sağlam həyat tərzi keçirəndə, zərərli vərdişlərdən-siqaret və alkoqoldan uzaq olanda qan da sağlam olur. Qanın orqanizmdə fəaliyyətinin tənzimlənməsi üçün müntəzəm olaraq təmiz havada gəzmək, idmanla məşğul olmaq, düzgün qidalanmaq, normal yuxu, təbiət qoynunda istirahət etmək lazımdır.

Təəssüf ki, bəzən bitkilərdən istifadə edərkən onların qana necə təsir göstərdiyi nəzərə alınmır. Məsələn, qatırquyruğdan istifadə zamanı qan qatılaşır, nanədən istifadə edəndə qan durulur. Ürək və böyrəklərin fəaliyyəti pozulanda, eləcə də qan damarlarında kirəcləşmə (ateroskleroz) olduqda təzyiq yüksəlir. Badamı şəkərlə birlikdə qəbul edəndə qan damarlarının kirəcləşməsinin qarşısı alınır”.

Həkim-hematoloq orqanizmdə qanın tərkibini yaxşılaşdırmaq üçün bir neçə reseptdən istifadə etməyi məsləhət görüb.

Hər birindən 100 qram olmaqla tozağacı tumurcuğu, dazıotu, solmazçiçək və çobanyastığı qarışdırılır, qarışıqdan bir xörək qaşığı 0,5 litrlik saxsı çaynikdə dəmlənilir, ağ təmiz parçadan süzülür, səhər yeməyindən yarım saat əvvəl və yatmazdan bir saat qabaq bir stəkana bir çay qaşığı bal qatılaraq içilir. Müalicə kursu 42-45 gün aparılır.

Yovşan suyundan balla şərbət hazırlanıb içilir.

Qanın təmizlənərək saflaşması üçün bağ sarmaşığı suda qaynadılır və suyu stəkanla içilir. Qan təzyiqi aşağı olanda bir stəkan ayrana bir çay qaşığı duz qatılaraq qəbul edilir.

Qan təzyiqi yuxarı olanda sarımsaq əzilərək balla qarışdırılaraq məcun hazırlanır, çay qaşığı ilə qəbul edilir.

Qan azlığı zamanı hər birindən eyni miqdarda tozağacı yarpağı və gicitkən qarışdırılır, qarışıqdan iki xörək qarışığı 300 ml qaynar suda dəmlənir, üç saat sonra süzülür. Gündə 3-4 dəfə yeməkdən yarım saat əvvəl qəbul edilir. Müalicə kursu 3-4 həftə davam etməlidir.

Acı yeməklər isti havada ən ideal seçimdir

Mütəxəssislər isti havada orqanizmin sərinlənməsi, maddələr mübadiləsinin təxminən 20 faiz sürətlənməsi, qazanılan isti hesabına kalori sərfi və immun sisteminin möhkəmlənməsi üçün acı qidalar yeməyi məsləhət görürlər. Çili bibəri kimi acı ərzağın tərkibində kapsaitsin birləşməsi var.

Kapsaitsin ağız boşluğunda TRPV1 reseptorları ilə birləşir. Bu reseptorlar havanın hərarətinin təhlükəli dərəcədə yüksəlməsi barədə beyinə xəbərdarlıq siqnalları ötürür. Yəni bunlar kapsaitsinin meydana çıxması üçün nəzərdə tutulmayıb. Bu reseptorlar insanı yanğın təhlükəsindən qoruyur. Bədən acı birləşmə ilə təmasda olarkən avtomatik özünü soyutmağa başlayır: tərləyir, qanı üzdəki kapillyarlara qovur, gözləri sulandırır. Kapsaitsin dadbilmə reseptorlarına öz təsirini göstərə bilmir.

Xoşagəlməz hisslərə baxmayaraq, bəzi insanlar acı qidadan sonra hətta eyforiya yaşayırlar. Belə ki, kapsaitsin endorfinlərin (ağrıların qarşısını alır və xoşbəxtlik hissi əmələ gətirir) və dofaminin (insan beynindəki mükafat sisteminin fəaliyyəti üçün vacibdir) ayrılmasına şərait yaradır. Düzdür, vaxt ötdükcə insanın acı qidaya həssaslığı azalmağa başlayır.

Yeri gəlmişkən, kapsaitsin iştahanı azaltmağa qadirdir. Tədqiqatlar göstərir ki, naharda qəlyanaltıya acı sous əlavə olunan zaman könüllülər həmişəkindən təxminən 200 kalori daha az qida qəbul ediblər. Kapsaitsinin əsas mənbəyi sayılan acı bibərin tərkibində A və C vitaminləri var ki, bunlar da immunitetin möhkəmlənməsinə şərait yaradırlar. Acı ərzaqlar ibuprofendə olduğu kimi, mikrob və iltihabəleyhinə təsirə də malikdir.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1972